


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 74 (24.211)

*28 aprel 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev Fransanın Avropa və xarici işlər nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Fransa Respublikasının Avropa və xarici işlər naziri Ketrin Kolonnanı qəbul edib.

Prezident İlham Əliyev Azərbaycan-Fransa əlaqələrinin perspektivləri ilə bağlı geniş fikir mübadiləsi aparılmasının zəruriliyini bildirərək Ketrin Kolonnanın ölkəmizə səfəri zamanı bir çox məsələlər ətrafında hərtərəfli müzakirələrin keçiriləcəyinə əminliyini ifadə etdi, bunun gələcək əməkdaşlıq üçün faydalı ola biləcəyini vurğuladı. Dövlətimizin başçısı əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsinin növbəti mərhələ üçün yol xəritəsinin tərtib edilməsi baxımından önəmli olduğunu bildirdi.

Azərbaycan Prezidenti ikitərəfli münasibətlərin gündəliyinin həmişə çox geniş olduğunu dedi, siyasi, iqtisadi, enerji, nəqliyyat sahələrində və digər sahələrdə əməkdaşlığın yaxşı tarixə malik olduğunu qeyd etdi.

Prezident İlham Əliyev Fransanın Avropa və xarici işlər nazirinin regiona səfər etdiyini vurğulayaraq bu çərçivədə, eyni zamanda regional əməkdaşlıq və regional təhlükəsizlik məsələlərinin də müzakirə olunacağına ümidvarlığını bildirdi.

Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsi başa çatandan dərhal sonra məhz ölkəmizin Ermənistanla qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımaqla sülh müqaviləsi imzalamaq təklifini irəli sürdüyünü və bunun üçün rəsmi İrəvana 5 prinsip təqdim etdiyini vurğuladı.

Prezident İlham Əliyev bildirdi ki, 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanmasından və 44 günlük Vətən müharibəsinin başa çatmasından sonra Ermənistan öz üzərinə düşən öhdəliklərini yerinə yetirmir. Bu xüsusda dövlətimizin başçısı vurğuladı ki, Ermənistan Naxçıvanla dəhlizin yaradılmasına imkan vermir, öz qoşunlarını Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarmır və Laçın dəhlizindən suiistifadə edərək Qarabağa silah-sursat və digər hərbi təyinatlı məhsulların daşınmasını həyata keçirirdi.

Prezident İlham Əliyev Azərbaycan-Ermənistan sərhədində, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulmasını ölkəmizin suveren hüququ və ərazi bütövlüyümüzün təmin olunmasının ifadəsi olduğunu qeyd etdi.

Katrin Kolonna Fransa Prezidenti Emmanuel Makronun salamlarını dövlətimizin başçısına çatdırdı. Vurğuladı ki, Emmanuel Makron Azərbaycan Prezidenti ilə açıq və mütəmadi əlaqələrə çox önəm verir.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Emmanuel Makrona çatdırmağı xahiş etdi.

Katrin Kolonna bildirdi ki, Fransa Azərbaycanda və ümumiyyətlə, Cənubi Qafqaz regionunda sülhün, iqtisadi və sosial inkişafın mövcud olmasını istəyir və ölkəsinin məqsədi həmişə bundan ibarət olub. Qonaq Fransanın ikitərəfli əlaqələrə, eyni zamanda Avropa İttifaqı çərçivəsində əlaqələrə böyük önəm verdiyini bildirərək bu istiqamətdə geniş potensialın mövcud olduğunu dedi.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Naxçıvanda silsilə tədbirlər keçirib







Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında silsilə tədbirlər təşkil olunub.

DTX-dən verilən xəbərə görə, tədbirlər çərçivəsində aprelin 24-də xidmətin Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsinin bir qrup əməkdaşı Culfa rayonu ərazisində yerləşən Haçadağ zirvəsinə yürüş təşkil edib.

Yürüş iştirakçıları qarşıya çıxan maneələri uğurla dəf edərək təyin olunan yerə vaxtında çatıb, orada Ulu Öndərin şəkli əks olunmuş plakatı və Azərbaycan Respublikasının Dövlət Bayrağını yerləşdiriblər.

Aprelin 26-da Naxçıvan şəhərində "Heydər Əliyev və təhlükəsizlik orqanları" adlı təntənəli tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları müasir Azərbaycanın banisi və qurucusu, Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, xatirəsinə ehtiramlarını bildiriblər. Sonra Heydər Əliyev Muzeyinə ekskursiya təşkil olunub.

Burada qonaqlar dahi rəhbərin həyat və fəaliyyətini özündə əks etdirən fotostendlərlə və müxtəlif dəyərli eksponatlarla yaxından tanış olduqdan sonra tədbirin keçirildiyi Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrına gəliblər.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, DTX-nin rəhbər şəxsləri və əməkdaşları, şəhərin hüquq-mühafizə orqanlarının rəhbərləri, təhlükəsizlik orqanlarının veteranları, Vətən müharibəsi iştirakçıları, şəhid ailəsi üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.





Öncə Ümummilli Lider Heydər Əliyevin və Vətən yolunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib. Daha sonra çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli qonaqları salamlayaraq belə bir tədbirin Ulu Öndərin böyüyüb boya-başa çatdığı doğma Naxçıvan şəhərində keçirilməsinin önəminə toxunub. O, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin ömür yoluna nəzər salaraq dahi şəxsiyyətin təhlükəsizlik orqanlarında fəaliyyəti və Azərbaycanın rəhbəri olaraq misilsiz xidmətləri barədə ətraflı məlumat verib, ölkəmizin milli tərəqqi strategiyasının əsasının məhz Heydər Əliyev tərəfindən qoyulmasından geniş söhbət açıb. Fuad Nəcəfli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında respublikamızın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu və bu siyasət xəttinin ölkəmizin davamlı yüksəlişinə xidmət etdiyini xüsusi vurğulayıb.

Tədbirin mövzusu ilə bağlı digər natiqlər də çıxış edərək Ulu Öndərin təhlükəsizlik orqanlarında xidməti fəaliyyətinə məhz Naxçıvan şəhərində başladığını diqqətə çatdırıblar. Çıxışlarda bildirilib ki, dahi şəxsiyyət Heydər Əliyev öz dəmir iradəsi, yenilməz əzmi, dərin biliyi, istedadı və bacarığı sayəsində vəzifə pillələrində inamla addımlayaraq təhlükəsizlik təsisatının rəhbəri vəzifəsinə qədər yüksəlməyi bacarıb və bu qurumun ilk azərbaycanlı generalı olub. Məruzəçilər Ulu Öndərin sözügedən təşkilata ən mühüm töhfəsi olan, keçən əsrin 50-ci illərinin əvvəllərindən başlanan bu orqanların milliləşdirilməsi prosesinin iştirakçısı və sonralar da birbaşa təşkilatçısı olduğunu özünün hər zaman qürur və böyük iftixar hissi ilə xatırladığını söyləyib, Heydər Əliyevin peşəkarlıq irsinin bundan sonra da layiqincə davam etdiriləcəyinə əminliklərini ifadə ediblər.

Sonda tədbir iştirakçıları təhlükəsizlik orqanlarının tarixindən və dahi rəhbər Heydər Əliyevin bu orqanlardakı fəaliyyətindən bəhs edən sənədli filmə tamaşa ediblər.



# Heydər Əliyev İli

100




*Onu sanki tarixin həqiqətləri, zamanın reallıqları yetişdirib Azərbaycan xalqına göndərmişdi...80 illik mənalı ömründə yalnız bir amal uğrunda çalışırdı – azadlığı, müstəqilliyi, sərvətləri tar-mar edilən Azərbaycan xalqı yolunda. Bəlkə, elə buna görə idi ki, hər dəfə mövzu Vətən olanda səsi titrəyirdi, qəlbindən qopan hayqırtılar* ***"Gərək nəbzin Vətənin nəbzi ilə vursun"*** *hikmətli tövsiyəsi ilə qulaqlarda çınlayırdı, tarixin daşlaşmış yaddaşı isə onu hər zaman bu sözlərini xatırlatmaqla yad edirdi, öyünürdü, qürrələnirdi:* ***"Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm..."*** *Ağlıma hakim kəsilmiş bu düşüncələr bir Azərbaycan gəncinin varlığına hopmuş həqiqətlər olmaqla bərabər həm də dayandığım bu əzəmətli binanın, daha doğrusu, xalqımızın irsi – milli sərvəti olan Ümummilli Lider Heydər Əliyevin əlinin toxunduğu, səsinin yetdiyi, ona sədaqətlə xidmət edən dəyərli və nadir mədəniyyət nümunələrinin dilindən süzülən gerçəklərdir. Bu, qəlbində "Azərbaycan" adlı əbədi abidə ucaldan sərkərdənin adını qürurla daşıyan Muzeyin – Heydər Əliyev Muzeyinin söhbətidir. Qulaq verək hər birinə tariximizin bir şanlı səhifəsi hopmuş maddi mədəniyyət nümunələrimizin dahi rəhbər barədə söylədiklərinə, Ulu Öndərin mənalı, şərəfli ömür yoluna bir də onların dili ilə səyahət edək. Axı onlar elin xilaskarını, xalqa həsr edilmiş mənalı ömrü – Heydər Əliyev ömrünü bizdən daha yaxşı tanıyırlar...*

## Mübariz xalqımızın milli sərvəti, bütün zamanların Ulu Rəhbəri

### və ya bir ünvana əbədiyaşarlıq verən dahilik zirvəsi

#### *Yüksəlişə doğru həyat yolu...*

Göz izlədikcə bu rəngarəng mühitdə insan qeyri-ixtiyari olaraq qəribə hisslərin eyforiyasına qapılır. Görmədiyi, yaşamadığı, haqqında yalnız tarix kitablarında, qəzetlərdə, jurnallarda yazılan məlumatlarla bilgi əldə etdiyi dövrün sanki canlı şahidi olur. Muzeyin zəngin eksponatlarının hər biri "əllərimizdən tutub" Ulu Öndərlə bağlı xatirələrini bölüşməyə çalışır. Onların hər birinin Ümummilli Liderin həyatında olduğu kimi, tariximizdə, milli soykökümüzdə də ayrıca yeri, məqamı var... Uzaqdan ilmə-ilmə toxunaraq görkəmli siyasi xadimin uşaqlıq illərindən bəhs edən "Yüksəlişə doğru həyat yolu" adlı xalça salamlayır bizi. Böyük təvazökarlıqla sadə, kasıb, lakin mənəviyyatı zəngin bir ailədə doğulan balaca Heydərin uşaqlıq illərindən söhbət açır bizə: – O, 1923-cü ildə öz halal ruzisi ilə ailəsinin dolanışığını təmin edən Əlirza kişinin ocağında dünyaya gəlmişdi. Çıxışlarının hər birində qürurla, şərəflə boya-başa çatdığı, kamala dolduğu ailəni belə yad edirdi: ***"Mən balaca bir evdə, zəhmətkeş ailəsində, bir yaz günü dünyaya göz açmışam. Anadan olanda, yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib. İndi, bəlkə də, bir o qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni bütövlükdə Azərbaycanımız üçün dünyaya gətirib..."*** Azərbaycan xalqının müstəqillik arzusunu gerçəkliyə çevirərək milyonların qəlbində əbədi abidə ucaldan Ulu Öndərimiz həm də müstəqil Azərbaycanın qurucu rəhbəri, müəllifi kimi daim insanların könlündə böyük ehtiramla anılır. Bu böyük insanın şəxsi həyatı, uşaqlıq və gənclik illəri, ömrünün bütün dövrləri gərgin zəhmətlə keçib. Uşaqlıq illərində yaşadığı çətinliklərə rəğmən məktəbdə, ailədə nümunəvi davranışı ilə seçilib. O illərdə hər bir azərbaycanlı yeniyetmənin arzularını puç edən dövrün çətinlikləri onun da həyatından təsirsiz ötüşməyib. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Memarlıq fakültəsinə daxil olsa da, İkinci Dünya müharibəsinin başlanması ona təhsilini başa çatdırmağa imkan verməyib. Lakin gələcəyin dahi rəhbəri və görkəmli siyasi xadimi həmyaşıdlarından fərqli olaraq bütün ağrı-acıları, necə deyərlər, özünə yoldaş bilib. Əlbəttə, bu dövrlərin çətin anları yaşanmasaydı, maneələr qətiyyətlə dəf edilməsəydi, bütün çətinliklər xalqın xilaskar övladını yetişdirməsəydi, bəlkə də, sonrakı zamanların uğurları qazanılmazdı, ya da qazanılması çox çətin, bəlkə də, mümkünsüz olardı...



#### *Ömür yollarında...*

Göz izlədikcə uzağı, yaxını saf sevginin, təmənnasız məhəbbətin, Vətənə, xalqa xidmətdə keçən hər iki ömrün ətrafa hakim kəsilmiş şux baxışları salamlayır bizi. Muzeyin bu guşəsində yaşmadan, statusundan asılı olmayaraq, hər kəs bir anlıq ayaq saxlayır, divardan asılmış əsərə tamaşa edir, tarixə adlarını sədaqətlə yazan hər iki dahi şəxsin – Ulu Öndər və Zərifə xanımın "Ömür yollarında" adlı portretinə göz gəzdirir. Başdan sonadək sevgi örnəyi, həqiqi məhəbbət nümunəsi kimi sevilib-seçilən Heydər və Zərifə eşqinə "Onlar xoşbəxt ulduz altında dünyaya göz açıb", – deyirlər. O ulduz ki Tanrının taleyinə yazdığı ömür yolunu elə həmin ulduzun şəfəqləri ilə işıqlandırır, öz mənəviyyatından başqalarına da pay verir. Həmin portretin onlar haqqında qürurla, fəxrlə dediyi kimi: – Mənim xatirələrimin təməlində nümunəvi eşq rəvayətinin, sevgi dastanının dayandığı iki qütb var. O qütbün bir tərəfində səksənillik mənalı ömrünün hər anını, hər saniyəsini xalqına həsr edən Ümummilli Lider Heydər Əliyev, digər tərəfində isə analıq qəlbinin ülviyyətindən, zərifliyindən, şəfqətindən Vətən övladlarına pay verən Zərifə xanım dayanır. Deyirlər, dünyada öz qüdrəti ilə seçilən, tarixdə iz buraxmış hər bir güclü kişinin arxasında ona daim arxa-dayaq olan ideal qadın durur. O ideal qadın ki saf əməlləri, nurlu ideyaları ilə nəinki ailəsinə, hətta bütöv bir xalqa başucalığı gətirir. Qəlbində "Vətən daşı" olan soydaşlarımıza həm böyük tale, həm də böyük xoşbəxtlik bəxş edən Zərifə xanım Əliyeva kimi... İndi artıq onlar Azərbaycan xalqının yaddaşında, tarixin ən parlaq səhifəsində dayanıb, azad Vətənimizə ömrün yüzüncü baharından boylanırlar. Baxdıqca geridə qalan nurlu əməllərinə, Şuşalı, Laçınlı, o taylı, bu taylı vətənlərinə bizim qədər öyünür və fəxr edirlər.

#### *Mənim Heydər adlı Azərbaycanım*

Ecazkar muzeyin sirli-sehrli aləmi insanı elə özünə cəzb edir ki, zamanın necə axdığının, necə keçdiyinin fərqinə belə varmırsan. Bir-birindən maraqlı, o cümlədən tariximizin bir çox mürəkkəb dövrlərinə işıq tutan maddi nümunələr "əllərimdən tutub" fərqli bir guşəyə gətirir məni. Bu guşədə dahi rəhbərin gənclik illərindən istifadə etdiyi şəxsi əşyaları, habelə Ümummilli Liderin xatirəsinə



həsr olunmuş mədəniyyət nümunələri yer alır. Qarşısında dayandığım bir portret ömrünün gənclik şövqünü yaşayan, o dövrlərdə həyat kitabının 20-ci səhifəsini mütaliə edən gələcəyin dahisinin – Heydər Əliyevin gənclik illərindən söhbət açır insanlara... Rəhbərin həyatının bütün dövrləri qeyri-adi, çoxlarına mümkünsüz görünən, qəhrəmanlara xas olan hadisələrlə doludur. Gənclik illərindən, elə şəkildə göründüyü yaşlardan öz əqidəsi, savadı ilə gələcəyi yolunda addım atan sabahın dahi şəxsiyyəti sanki dövrün çətin hadisələrinə də meydan oxuyurdu. Məşəqqətli, böyük zəhmət və potensial tələb edən siyasi işlərə də məhz bu yaşlarından, yəni ömrünün ən həssas dövrlərindən atılmışdı...1950-ci, 60-cı illərdə, sovetlər zamanında milli təhlükəsizlik orqanlarında işləmək nə qədər şərəfli olsa da, bir o qədər çətin və məsuliyyətli idi. O, çox böyük təsirlərə, çətinliklərə məruz qalsa da, bu sistemdə şərəfli həyat yolu keçdi, öz fəaliyyəti, çoxlarına xas olmayan xeyirxahlığı, vətənpərvərliyi ilə şəxsiyyətini tarixiləşdirdi. Bunu da deyək ki, Ümummilli Lider Heydər Əliyev elə həmin illərdən xalqın gələcək taleyi barədə düşünməyə başlamışdı. Bu ülvi düşüncənin verdiyi həvəslə öz sahəsinin, dövlət siyasətinin incəliklərini öyrənir və xalqına öz yardım əlini uzadacağı günü səbirsizliklə gözləyirdi. Onu xilaskar lider kimi Azərbaycana tanıdan o möhtəşəm günü deyirəm...

#### *Çıraq işığından başlanan yüksəliş yolu...*

Böyüklərimdən eşitmişəm ki, Ulu Öndər o illərdə işığın, qazın olmaması səbə-



bindən Azərbaycanımızın tarixi taleyi ilə bağlı bir çox qərarları bu müqəddəs məbəddə saxlanılan neft lampasının, bu çırağın işığında qəbul edibmiş. Buna görə də Dahi Rəhbərin o illərdə göstərdiyi əvəzsiz xidmətlərini "Çıraq işığından başlanan yüksəliş yolu" adlandırırlar. İndi muzeyin həmin hissəsində özünə yer alan və Ulu Öndərlə bir zamanlar yoldaşlıq etmiş həmin çırağın qarşısında dayanmışam... Ümummilli Liderin 1991-1993-cü illərdə Naxçıvanda işlətdiyi şəxsi əşyaları içərisindəki bu çıraq muzeyin digər dəyərli nümunələrindən tamamilə fərqlənir. Çünki bu çıraq dünyanı nefti ilə işıqlandırıb özü zülmətdə qalan Azərbaycanın ötən əsrin 90-cı illərinin tarixinə, daha dəqiq desək, bu ağrılı-acılı vəziyyətdən ölkəsini nurlu sabaha çıxaran Ümummilli Liderin atdığı qətiyyətli addımlara şahidlik edib. Bu çıraq iş masası üzərində dayanan tarixi sənədlərə, düşmən əlindən xilas olmaq istəyilə alışıb-yanan soydaşlarımızın ümid dolu məktublarına sanki yenidən işıq salır. Hələ də o illərin hənirtisini xalqımıza hiss etdirən çırağın "pıçıldadığı duyğulara" qulaq verdikcə sanki həqiqətdən güc alan işığı Ulu Öndərin mənalı ömür yolundan danışır bizlərə: "Vətənimizin xilaskar oğlu tarixin ən çətin və məsuliyyətli anlarında Azərbaycan xalqının ruhuna nəfəs kimi qayıtmışdı. Bu gün muzeyi ziyarət edən uşaqdan böyüyə hər kəs yaxşı bilir və dərk edir ki, Ulu Öndər Vətənini sevərək hifz etmişdi, xalqının milli mövcudluğunu qoruyaraq xilaskarlıq missiyasını yerinə yetirmişdi. Taleyin hökmü və xalqın təkidli tələbi ilə iki dəfə bu missiyanı üzərinə götürən Ulu Öndər hər dəfə Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatırdı, ölkəmizi böyük bəlalardan qurtarırdı. Siyasi fəaliyyətə həsr etdiyi səksənillik ömrünün iki ilinin şahidiyəm... Hər dəfəsində otağa daxil olarkən öncə məni aydınlandırar, ardınca otağın bir küncündə asılmış üçrəngli bayrağa gözünü zilləyər, bir xeyli tamaşa edər, ardınca əlində bərk-bərk sıxdığı kağızları oxumağa başlayardı. O kağızların əksəriyyəti Vətənin dörd bir tərəfindən övladı didərgin düşmüş ata-anaların imdad çağırışları idi... Zahirən sərt, tələbkar görünən bu dahi insanın, əslində, necə də səmimi və sadə olduğunu şəxsən görmüşəm və yaxşı bilirəm ki, onun durğun baxışlarında, yalnız və yalnız bütün varlığı qədər sevdiyi Azərbaycan xalqının gələcək taleyi gizlənirdi. Bunun nəticəsi idi ki, ali kürsülərin böyük natiqi olan xilaskar liderin dilindən tez-tez bu ifadələri eşitmək olurdu: ***"Böyük siyasəti kiçik hisslərə, xırda mənfəətlərə bağlamaq olmaz".*** Bir an belə olsun çöhrəsindən yorğunluq hiss edilməyən siyasət dünyasının böyük nasehi bütün şüuru, əqli ilə varlığı, canı qədər sevdiyi Azərbaycanın istiqlaliyyəti, hürriyyəti yolunda çalışardı. Son ana qədər də yalnız bu amal uğrunda çalışdı..."

#### *Gətirdin könlümə səfa, bayrağım!*

Dörd bir tərəfində Azərbaycan xalqının həyat ritmi, tarixi, milli-mənəvi dəyərləri, sevinci, kədəri, həyat eşqi yaşayan muzeyin bir guşəsində də bu mənəviyyat və qürur ünvanına ekskursiya edənlərin səmimi sözlərinin yer aldığı xatirə dəftəri dayanır. Dəftəri açıb heç tanımadığım hər hansısa bir şəxsin Ümummilli Lider haqqında söylədiyi bir cümləni oxuyuram. Qardaş Türkiyə Respublikasının vətəndaşı Gülgün Öztürk adlı bir şəxsin yazdığı sətirlər isə ən azı onun qədər mənim də qüruruma səbəb olur: "Ulu Öndər Heydər Əliyevin həyatı, siyasi fəaliyyəti və Azərbaycan xalqına həsr etdiyi ömrü barədə hər kəs yaxşı bilir...Amma muzeydə keçən

*Ardı 3-cü səhifədə*

# Heydər Əliyev İli 2023



qısa zaman ərzində məni ən çox təəccübləndirən və qürurlandıran 90-cı illərdə dahi şəxsiyyət Heydər Əliyev tərəfindən Naxçıvan Muxtar Respublikasında qaldırılan üçrəngli, ayulduzlu, şanlı Azərbaycan bayrağı olmuşdur. Düşünürəm ki, bütün çətinliklərin tüğyan etdiyi bir zamanda qardaş Azərbaycanın tarixində belə bir hadisənin baş verməsi Türk dünyasının gələcək taleyi üçün böyük addım olub..." Sətirləri oxuduqdan sonra dəftəri bükür və dörd bir tərəfində sərgilənmiş eksponatlara tamaşa edə-edə muzeyin ən başında yer alan müstəqilliyimizin, milli mənliyimizin simvolu olan üçrəngli bayrağımızın "söhbətinə qulaq kəsilirəm..." Uğrunda minlərlə Vətən oğlunun canından keçdiyi, xalqımızın müstəqillik yolunda min bir əzab-əziyyətə qatlaşdığı bu üçrəngli bayraq 1990-cı il 17 noyabr tarixində Naxçıvan Muxtar Respublikasında qəbul edilmişdi. Dahi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü ilə həmin gün Naxçıvanın adından "Sovet Sosialist" sözləri götürüldü, ölkəmizin milli atributları – Bayrağımız, Himnimiz və Gerbimiz qəbul olundu və Naxçıvan Muxtar Respublikası 70 illik sovet siyasətinin girdabından çıxaraq müstəqillik yolunda ilk, həm də ən böyük addımını atdı... Azərbaycan tarixinin keşməkeşli, zaman ilə ölçülməyən illərini, yaşanılan zamanın həqiqətlərini, hətta o dövrlərin iqtidar başında olan "siyasi xadimləri"ni görən, hər bir hadisəyə şahid olan bayrağımız "danışır" bizə o illərdən: "Tarixdə elə şəxsiyyətlər olur ki, onların həyatı, ömrü və fəaliyyəti bütöv bir xalqın, dövlətin inkişaf yolunu müəyyənləşdirir. Bir əsrdən artıq zamanda dalğalandığım Azərbaycan torpağında gördüyüm, şahidi olduğum hadisələr bir daha göstərdi ki, milli dövlətçilik işinin möhkəm əsasları, etibarlı dayaqları görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən yaradılmışdır. Bu şərəfli və məsuliyyətli vəzifələri o, sovet hakimiyyəti illərindəki uzaqgörən siyasəti və keçən əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasındakı düşünülmüş, məqsədyönlü fəaliyyəti ilə gerçəkləşdirmişdi. Elin xilaskarı hələ Sovetlər İttifaqı çərçivəsində, çətin siyasi-ideoloji məhdudiyyətlər dövründə Azərbaycan Respublikasını formalaşdırmaqla gələcək dövlət müstəqilliyinin ilkin əsaslarını hazırlamışdı. Bu gün qanında Azərbaycançılıq məfkurəsi olan hər kəs yaxşı bilir ki, Ümummilli Liderin tarixdə ən cəsarətli addımlarından biri də 90-cı illərdə Naxçıvan Muxtar Respublikasında üçrəngli bayrağımızın dalğalandırılması idi, 30 ildən artıqdır, Vətən göylərinin ənginliklərində süzülən ay-ulduzlu Azərbaycan bayrağını..."

### *Əbədiyaşarlığa 8 dəqiqə qalmış...*

Tarixin ən sərt dövrlərindən keçərək xalqımızın milli şüuruna süzülən, Dahi Rəhbərin mənalı ömür yolu, həyatı barədə insanlara illərdir, qürurla məlumat çatdıran bu mənəviyyat guşəsində bir əşya da var... Onun donmuş, sanki öz rəngini-ruhunu itirmiş simasına baxdıqca zaman və məkan anlayışları insanın şüurunu bir anlığa tərk edir. Bir zamanlar Ulu Öndərin illərin yorğunluğu çökmüş simasına baxaraq qürrələnən bu əşya indi Ümummilli Lider sevərləri nikbin ovqatla salamlayır, bilmirəm, bəlkə də,



əbədi ayrılığa görə özünü günahlandırır. Yox... Yox, o da yaxşı bilir ki, bütün həyatını, ömrünü xalqına həsr etmiş insanlar heç zaman dünyasını dəyişə bilməz, əksinə, onlar cismani ayrılıqla əbədiyaşarlıq qazanar, xalqın qəlbində özünə yer alar babaların hikmətində, nənələrin bayatılarında, anaların laylasında, körpələrin inqəsində, şairlərin misrasında yaşayar, əbədi yaşayar... Dindirsən, qulaq versən, nələrdən danışmaz, nələrdən söhbət açmaz ki, bizlərə... Ruhunda milli məfkurə, qanında xalqına sevgi və ehtiram olan hər kəs yaxşı bilir onun söhbətini. Ulu Öndərin Azərbaycanın tarixinə hopduğu və əbədiyaşarlıq qazandığı anın dəqiqələrini, hətta saniyələrini üzərində daşıyan saatı deyirəm... Dinləyin qəlbi sinədəftər olan bu saatın "söylədiyi" həqiqətləri: "Tanrının qüdrətindən pay olan Ulu Öndər Heydər Əliyevin xalqı, Vətəni qarşısında gördüyü işlərdən, göstərdiyi xidmətlərdən yaşadığı ömür qədər danışılsa belə yetərli olmayacaq. Nə mənim, nə də onunla bir ömür sədaqət yoldaşlığı etmişlərin xatirəsi doldurar onun mənalı ömür yolunu, söhbətimiz, sözümüz nə qədər təsirli olsa da, kifayət etməz Heydər adlı bir dünyanı aydınlatmağa... Çünki o yüz ildə, min ildə bir dəfə yetişən şəxsiyyətdir və kürreyi-ərz onun köksündə nəfəs alan milyardların yox, məhz Ümummilli Lider kimi nadirlərin və siyasət nəhənglərinin çiyinləri üstündə qurulmuşdu. Onun gedişi ilə mənim də nəfəsim öz aramlığını itirdi, illərdir, işləyərək ömürlərdən, həyatlardan ötüb-keçən zamanın qəmini yaşayan millərim bir anda dayandı, 20 ildir ki, həmin yerdə dayanaraq saat 7-yə 8 dəqiqə qalmış zamanı göstərir – dünyanın bir neçə saniyə ərzində kiçildiyi, Ümummilli Liderin aramızdan cismani surətdə ayrılıb, xalqın çiyinlərində əbədi həyata yola salındığı o nakam, o qəmli zamanı..."



...Yaranışdan bütün bəşər övladına məxsus ali bir duyğu doğulub köksümüzün altında, cücərib, boy göstərir. Zaman keçdikcə daha da əlvanlaşan, daha da müqəddəsləşən, hiss və düşüncələrimizə hakim kəsilən o duyğu ən dar məqamlarda ən yaxın köməkçimizə çevrilir. Həyatdan əlimizi üzəndə o duyğu əlimizdən tutur, inamımızı, istinadgahımızı itirəndə o duyğu bizim üçün inama, istinadgaha çevrilir. Sevgidir o hissin adı, əsl sevgi, təmənnasız sevgi...Xalqımızın Ulu Öndərə duyduğu bu hiss, bu düşüncələr mənalı ömründə bizə miras qoyduğu müstəqil Azərbaycanın, onun xidmətlərinin qarşılığıdır. Bu ünvanda olduğum müddətdə ağlımdan heç çıxmayan düşüncələrin dəryasından Ümummilli Liderin öz dilindən eşitdiyimiz, Vətən sevgisindən kövrələrək söylədiyi o məşhur kəlmələr – "Azərbaycan" şeirindən bu misraların xoş avazı oyadır məni. Bir zamanlar bura üz tutanları sağlığında olduğu kimi, yenə də böyük mehribanlıqla yola salır, yola salarkən də yaddaşlarda özü kimi əbədi qalacaq xoş xatirə buraxır:

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən,*
*Anam doğma Vətənimsən!*
*Ayrılarmı könül candan?*
*Azərbaycan, Azərbaycan!*

✍ **Məcid RƏŞADƏTOĞLU**

***Məqalə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə keçirilən "Dahilik zirvəsi" esse müsabiqəsinə təqdim edilir***

## Dövlət sərhədlərinin nəzarətə götürülməsi ölkəmizin suveren hüququdur



Vətən müharibəsindən ötən zaman müddətində ölkəmizin bir sıra ərazilərində Ermənistan hökumətinin yaratdığı təxribatların, terror aktlarının şahidi olmuşuq. 44 günlük haqq-ədalət mübarizəmizdə bütün iqtisadi gücü, hərbi potensialı əlindən çıxmış, daxilində, sözün əsl mənasında, vətəndaş müharibəsi başlamış Ermənistanın dəfələrlə bu cür addım atması bir daha ermənilərin rəzil və alçaq xislətlərini dünyaya çatdırır. Bu da bir reallıqdır ki, rəşadətli ordumuz tərəfindən bir küncə qısılmış, məğlubiyyət aktını qəbul etməkdən başqa çıxış yolu qalmayan Ermənistan ordusu öz zəifliyini dəfələrlə qəbul etməli olsa da, baş verən hadisələrdən dərs çıxarmaq bilmir ki, bilmir. Bu mənfi hadisələr isə səbəb yaradır ki, daim sülh mövqeyində dayanan Azərbaycan Respublikası qətiyyətli addımlar atsın, düşmən təxribatlarından Vətənimizin ərazi bütövlüyünü, xalqımızı qorumaq üçün ciddi qərarlar, qətnamələr qəbul etsin, bir sözlə, bədnam qonşulara heç bir halda göz açdırmasın. Dövlətimiz tərəfindən Laçın yolunun başlanğıcında sərhəd-nəzarət mexanizminin yaradılması haqqında qərarın qəbul edilməsi də hərəkətin təhlükəsizliyinin təmin edilməsi yolunda atılan növbəti mühüm addım kimi diqqəti cəlb edir.

Ölkəmizin bütün xəbər portallarında, mərkəzi media saytlarında məlumat verilib ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə və Ermənistan tərəfindən aprelin 22-də birtərəfli qaydada Azərbaycan ilə sərhəddə Laçın-Xankəndi yolunun girişində nəzarət-buraxılış məntəqəsinin qurulmasına adekvat olaraq aprelin 23-ü saat $12^{00}$-da Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi qurulub. Günün ən aktual məsələsi sayılan bu hadisə siyasi xadimlərimizin, alimlərimizin – ictimaiyyətin nəzərindən yayınmır. Bu səbəbdən hadisəyə bir tarixçi-alimin aydınlıq gətirməsi üçün Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru ***Arzu Abdullayev***lə həmsöhbət olduq.

Arzu müəllim mövzu ilə bağlı olaraq deyir ki, ölkəmizin Laçın-Xankəndi yolunun başlanğıcında, Azərbaycan-Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsinin qurulması haqqında qərarı və addımı beynəlxalq hüquq prinsiplərinə və normalarına tam cavab verir. Bu bizim mənəvi haqqımızdır. Ölkə sərhədlərinin nəzarətə götürülməsi Azərbaycan Respublikasının, xalqımızın suveren hüququdur. Belə ki, dövlətimiz tərəfindən atılan bu addım, həm də beynəlxalq normalara tam cavab verir. Hətta Ermənistanın özünün də tez-tez istinad etdiyi Praqa və Soçi görüşlərinin nəticəsində Azərbaycanın suverenliyini tanıdığını bəyan edib. Bu addım həm də ərazimizə qeyri-leqal yolla silah-sursatın gətirilməsinin qarşısını almağın alternativ variantıdır.

Həmsöhbətimiz onu da diqqətimizə çatdırır ki, bu məntəqənin qurulmasının səbəbini Ermənistan hökuməti bütün məsuliyyəti ilə çox yaxşı anlayır. Çünki düşmən mövqeyi tutan tərəf, yəni Ermənistan üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq ötən dövr ərzində Azərbaycana qarşı hərbi təxribatları dayandırmadı, yoldan qeyri-qanuni fəaliyyətlər, silah-sursat və minaların daşınması üçün istifadə etdi, təxribatlar törətdi, regionun davamlı inkişafına, sabitliyin təminatına ciddi maneələr yaratdı. Ermənistanın baş naziri Nikol Paşinyanın son çıxışı da onu bir daha göstərdi ki, sülh sazişi imzalanmadıqca Ermənistandan xarici qüvvələr vasitə və alət kimi istifadə edəcək, xalqına rahatlıq gətirməyəcək, ölkəni indikindən də çətin duruma salacaq, səfalətə sürükləyəcək. Tam əminliklə deyirik ki, Ermənistan səfalətdən, xaosdan çıxmaq üçün kimi təxribatlardan əl çəkməli, ölkələrin ərazi bütövlüyü və suverenliyi kimi prinsiplər əsasında Azərbaycanla münasibətlərin qurulması səylərinə məsuliyyətlə yanaşmalı, sülh danışıqlarına müxtəlif bəhanələrlə maneçilik törətməməli, Azərbaycanın ərazi bütövlüyünü tam dəstəkləməlidir. Bu, Ermənistan hökumətinin düşdüyü ağır, çarəsiz vəziyyətdən çıxması üçün tək yoldur.

*Tarixboyu Azərbaycan türkünə qarşı təcavüzkar mövqe sərgiləyən Ermənistan nə məğlubiyyətdən öncə, nə də sonra mənfur xislətindən əl çəkə bilmir. Siyasi gücü olmayan, beynəlxalq arenada nüfuzunu tamamilə itirməsinə baxmayaraq, son çırpınışlarını yenə də Azərbaycan xalqına qarşı terror aktlarını törətməklə sınayır. Bəlkə də, səhvini anlayıb Qafqaz regionunda qüdrətin, gücün kimdə olduğunu başa düşsə, dərk etsə, hətta bütün məsuliyyəti ilə Azərbaycan xalqından üzr istəsə, əfv diləsə, müqəddəratı tamamilə dəyişər... Ölkəmiz isə tutduğu sülh və əmin-amanlıq yolundan dönməyəcək. Çünki dövlətimiz üçün ən doğru yol azad Vətən torpaqlarında xalqımızın firavan yaşamasıdır.*

✍ **Məcid RƏŞADƏTOĞLU**

## Üçrəngli bayrağımıza həsr olunmuş tədbir



Bayraq dövlətin varlığının, tarixinin və taleyinin göstəricisidir, onun özünütəsdiq simvoludur. Bayraq millətin kimliyinin, təfəkkür və düşüncə tərzinin ən dəqiq mənəvi ölçü meyarıdır. Qürur və güvənc yeri kimi bayraq dünyanın hər yerində ən müqəddəs milli dəyərdir, azadlığın rəmzidir. Bu fikirlər Culfa rayonunun Bayraq Meydanında keçirilən tədbirdə səsləndirilib. Tədbir iştirakçıları əvvəlcə Azərbaycanımızın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Culfa Rayon İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Elçin Məmmədəliyev çıxış edərək bildirib ki, bir neçə gün bundan əvvəl Ermənistanda keçirilən ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində bayraqların paradı zamanı erməni ekstremist tərəfindən bayrağımız yandırılıb və təhqir edilib. Bayrağımıza qarşı bu münasibət yalnız Azərbaycanda deyil, dünyanın bir çox ölkələri və qurumları tərəfindən pislənilib. Şanlı bayrağımızın dalğalandığı bu meydanda bir daha həmin hadisəni qınayaraq bunu vandallıq aktı kimi qiymətləndiririk.

Qeyd olunub ki, bayrağımıza qarşı edilmiş bu insanlıqdan kənar münasibət Ermənistanın mötəbər səviyyəli idman yarışlarına ev sahibliyi edə bilmədiyini göstərir. Bu həm də hazırda iki ölkə arasında sülhün bərpasına Ermənistanın hazır olmadığını bir daha təsdiqləyir.

Culfa şəhər 2 nömrəli tam orta məktəbin müəllimi İradə Abdullayeva bildirib ki, bütün dünyaya müstəqil dövlətimizin varlığını bəyan edən Azərbaycan bayrağı bu gün erməni işğalından azad edilmiş torpaqlarımızda dalğalanır. Vətən müharibəsində qazandığımız qalibiyyəti həzm edə bilməyən ermənilər heyiflərini bizdən bu cür qeyri-sivil yollarla almağa çalışırlar.

Sonra Culfa Şəhər Körpələr Evi - Uşaq Bağçasının fidanlarının ifasında "Yaşa, Azərbaycan" rəqsi təqdim edilib, rayonun ümumtəhsil məktəblərinin şagirdlərinin ifasında vətənpərvərlik şeirləri səsləndirilib.

Sonda cəngi sədaları altında idmançılar meydana daxil olub, müxtəlif nümunələr təqdim edilib.

✍ **Aidə İBRAHİMOVA**

# İşıqsız gözlərə nur verən insan, Gözlərə verdiyi nurdan, işıqdan



*2023-cü il həm ölkəmizdə səhiyyənin inkişafına xüsusi qayğı göstərən, bu sahənin sürətli inkişafına nail olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, həm də səhiyyə sahəsində böyük elmi nailiyyətlərin əldə edilməsində əvəzsiz xidmətləri olan görkəmli akademik oftalmoloq-alim Zərifə xanım Əliyevanın anadan olmasının 100 ili tamam olur. Məlumdur ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilmiş, dövlətimizin başçısı "Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" 2022-ci il 3 noyabr tarixli Sərəncam imzalamışdır.*

Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində görkəmli alim, Əməkdar həkim, professor Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım Əliyeva mənalı ömür yolu keçmişdir. Zərifə xanım 1942-ci ildə Bakı şəhərində orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra Oftalmoloq ixtisasını seçmişdir. Sonra Moskvaya getmiş və orada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda məşhur alimlərin iş təcrübəsi ilə tanış olmuş, praktiki vərdişlərə yiyələnmiş, oftalmoloq ixtisası üzrə mütəxəssis kimi təkmilləşmiş, iki ildən sonra Vətənə qayıtmışdır. 1949-cu ildən etibarən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlamışdır. Bununla da onun elmi axtarışlarının, gələcək müvəffəqiyyətlərinin təməli qoyulmuşdur. O, fəaliyyət göstərdiyi Göz Xəstəlikləri İnstitutunun aspiranturasına daxil olmuş, elmi axtarışları dövründə özünə rahat yollar seçməyərək Vətənə, xalqa xeyir verə biləcək ən çətin sahələrdə əzm və iradə ilə çalışmışdır.

Ötən əsrin ortalarında Azərbaycanda traxoma xəstəliyi ocaqları genişlənir, ən çox uşaq müəssisələrini, məktəbləri əhatə edirdi. 1948-ci ildə Naxçıvan Muxtar Respublikasında 7 min nəfər traxomaya yoluxmuşdu. Onlardan 2 mindən çoxu uşaqlar idi. Yaşlıları, o cümlədən uşaqları görmə qabiliyyətinin itirilməsi kimi əzablı dövr gözləyirdi. Belə bir acınacaqlı vəziyyət tək Naxçıvan Muxtar Respublikasında yox, bütün Azərbaycanda ciddi həyəcan siqnalının çalınmasına əsas yaratmışdı. Moskva Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda təhsilini başa vuran gənc həkim Zərifə xanım Əliyeva 1949-cu ildə Naxçıvanda traxomaya qarşı mübarizəyə həsr edilmiş səyyar seminarlarda iştirak etmiş, bu sahədə əldə etdiyi elmi və praktiki nailiyyətlərin tətbiqinə nail olmuşdu. Gənc alim 1960-cı ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdi. Həmin illərdə Oftalmologiya Elmi-Tədqiqat İnstitutunda böyük elmi işçi vəzifəsində çalışan Zərifə xanım 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunmuşdur.

Zərifə xanım Əliyeva "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində – Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdi. Alim-oftalmoloqların yüksək qiymətini almış dissertasiya işi oftalmologiyanın bu sahəsində ozamankı sovetlər birliyi məkanında ilk işlərdən idi. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmiş və O, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru seçilmişdir. Hər cür çətinliklərə sinə gərən, hər zaman ən mürəkkəb problemlərin həllinə cəhd göstərən görkəmli alim tədqiqatlarını daha geniş və səmərəli şəkildə aparmaq üçün Azərbaycanın rayonlarını kəndbəkənd gəzir, insanları maarifləndirirdi. O vaxtlar Zərifə xanım Əliyevaya dünya şöhrəti gətirən görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyası Elmi-Tədqiqat İnstitutunda yox, məhz istehsal müəssisəsində – Bakı Məişət Kondisionerləri Zavodunda yaradılmışdı. 1981-ci ildə ölkəmizin tibb elmi, səhiyyə sistemi tarixində son dərəcə mühüm bir hadisə baş vermişdir. Azərbaycanlı alim Zərifə Əziz qızı Əliyeva görmə orqanının peşə patologiyası sahəsində apardığı silsilə elmi-tədqiqat işlərinin dəyərli nəticələrinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Zərifə xanım Əliyeva 1982-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının müdiri olmuş, 1983-cü ildə nəzəri və təcrübi təbabətdə qazandığı müvəffəqiyyətlərə, alınan elmi nəticələrin səhiyyə praktikasında geniş tətbiqinə, yüksəkixtisaslı tibbi kadrların hazırlanması yolunda göstərdiyi dəyərli xidmətlərə görə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. O, Azərbaycan oftalmoloqları arasında Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş ilk alimdir.

## Zərifə xanım Əliyevanın tədqiqatları, alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində xüsusi mərhələ təşkil edir

*Akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Bu tədqiqatlarda irəli sürülən yeni və effektli müalicə metodları, kompleks profilaktik tədbirlər qısa müddətdə müvəffəqiyyətlə geniş tətbiqini tapmışdır. Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyası məhz akademik Zərifə Əliyevanın təşəbbüsü ilə yaradılmışdır. Həkimlik etikasını bütün elmi və pedaqoji fəaliyyəti boyu daim diqqət mərkəzində saxlayan Zərifə Əliyeva respublikada yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf etmiş, gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəslini formalaşdırmışdır.*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" 2022-ci il 3 noyabr tarixli Sərəncamından***

Görkəmli akademik oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində göstərdiyi əvəzsiz xidmətlərinə görə Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. Akademik həm də keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini kimi fədakarcasına çalışmış, bir sıra xarici ölkələrdə səmərəli görüşlər keçirərək dəyərli çıxışlar, məruzələr etmiş, dünya xalqlarını sülhə, əmin-amanlığa səsləmişdir. O, respublika "Bilik" Cəmiyyəti idarə heyətinin, keçmiş SSRİ-nin Oftalmoloqlar Elmi Cəmiyyəti idarə heyətinin, Moskvada çıxan "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Zərifə xanımın çoxistiqamətli elmi yaradıcılığı 12 monoqrafiya, dərslik və dərs vəsaitlərində, 160-dan çox elmi işdə, bir ixtira və 18 səmərələşdirici təklifdə öz əksini tapmışdır. Zərifə xanım Əliyeva yaşadığı şərəfli və mənalı ömrə təkcə yaxşı həkim olmağı sığdırmamışdır. O qayğıkeş insan, vəfalı ömür-gün yoldaşı, mehriban ana idi.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən oftalmologiya sahəsində böyük nailiyyətlərə imza atan görkəmli alimin, akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyi ilə əlamətdar olan ildə bu münasibətlə böyük konfranslar, tibbi aksiyalar təşkil edilir. Belə ki, bu münasibətlə Naxçıvan Muxtar Respublika Xəstəxanasında keçirilən konfrans çərçivəsində aztəminatlı ailədən olan 10 nəfərə pulsuz katarakta əməliyyatı keçirilib, 20 aztəminatlı ailəyə isə eynək hədiyyə olunub. Həmçinin Diaqnostika Müalicə Mərkəzi tərəfindən gözdən əlil uşaqlar üçün tədris ləvazimatları, Ordubad internat məktəbi şagirdlərinin isə mərkəzdə oftalmoloji müayinələri aparılıb. Zərifə xanımın adını daşıyan Naxçıvan Şəhər Poliklinikasında isə akademikin xatirəsinə həsr edilmiş tədbir keçirilib.

Zərifə xanım Əliyevanın tədqiqatları, alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində xüsusi mərhələ təşkil edir. O, bütün ömrünü tibbin oftalmologiya sahəsinə həsr etmişdir. Zərifə xanım, həmçinin qayğıkeş ana, vəfalı həyat yoldaşı, hər bir qadına nümunə olacaq yüksək keyfiyyətlərə malik bir xanım idi. O xanım ki Azərbaycan tarixində 44 günlük zəfərin tarixini yazan şəxsiyyəti, Prezident cənab İlham Əliyevi tərbiyə edib, boya-başa çatdırmışdır.

Tibb elminə qazandırdığı uğurlar, onun elmi nailiyyətləri bu gün də oftalmologiya sahəsinə işıq salan, Azərbaycan qadınlarına xas olan ləyaqətli, şərəfli bir ömür yaşamış görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın nurlu xatirəsi qədirbilən xalqımız tərəfindən daim yaşadılacaq.

## Akademik Zərifə xanım Əliyevanın 100 illiyinə həsr olunmuş konfrans keçirilib



*Dünən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyinə həsr edilmiş konfrans keçirilib.*

Şəhər və rayon mərkəzi xəstəxanalarının rəhbərləri, həkim-oftalmoloqlar və Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin rezident-həkimlərinin iştirakı ilə keçirilən konfransı giriş sözü ilə Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini müvəqqəti icra edən Samiq Sadıxov açıb. O, səhiyyənin inkişafına göstərilən dövlət qayğısından danışaraq bildirib ki, digər sahələrdə olduğu kimi, səhiyyə sahəsində də Ümummilli Lider Heydər Əliyevin sosialyönümlü siyasət strategiyası Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və bu sahə daim diqqət mərkəzində saxlanılır, səhiyyənin inkişafı, əhalinin səhhətinin yaxşılaşdırılması qayğısına qalınır.

Qeyd edilib ki, anadan olmasının 100 illiyini dövlət səviyyəsində qeyd etdiyimiz görkəmli alim Zərifə xanım Əliyeva oftalmologiyanın aktual problemlərinə dair çoxsaylı tədqiqatlar aparıb, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxoma xəstəliyinin kökünün kəsilməsində böyük əmək sərf edib, onun müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının tapılması istiqamətində səmərəli elmi araşdırmalar aparıb. Akademik Zərifə xanım Əliyevanın çoxşaxəli elmi fəaliyyəti hələ sağlığında öz qiymətini alıb.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublika Xəstəxanasının baş həkimi Zəbur Bağırov akademik Zərifə xanım Əliyevanın hər bir Azərbaycan vətəndaşı, həkimi üçün kamillik məktəbi olmasından danışıb. Xəstəxananın Göz xəstəlikləri şöbəsinin müdiri Kamilə Orucəliyeva, həmin şöbənin bölmə müdiri, cərrah-oftalmoloq Kəmalə Əliyeva, Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası publik hüquqi şəxsin həkim-oftalmoloqu Aynur Rzayeva, Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası publik hüquqi şəxsin Terapiya şöbəsinin müdiri, həkim-terapevt Aytən Kotan məruzələrlə çıxışlar edərək görkəmli akademikin həyatı və elmi fəaliyyəti, onun tibb elminə, əsasən də, görmə orqanının sağlamlığı üçün bəxş etdiyi əvəzsiz xidmətlərindən danışıblar.

Konfrans çərçivəsində Naxçıvan Muxtar Respublika Xəstəxanası publik hüquqi şəxsdə Bakı şəhərindən dəvət olunmuş oftalmoloq-cərrah Ruslan Məmmədov və Naxçıvan Muxtar Respublika Xəstəxanası publik hüquqi şəxsin Göz xəstəlikləri şöbəsinin bölmə müdiri, cərrah-oftalmoloq Kəmalə Əliyeva tərəfindən aztəminatlı ailədən olan 10 nəfər üzərində pulsuz katarakta əməliyyatları icra edilib. Həmçinin 20 aztəminatlı ailəyə pulsuz eynək hədiyyə olunub.

Tədbirin sonunda akademik Zərifə xanım Əliyevanın həyat və fəaliyyətini özündə əks etdirən videoroluk izlənilib.

Sonra Naxçıvan Muxtar Respublika Xəstəxanasının qarşısında görkəmli alimin xatirəsinə həsr edilmiş möhtəşəm fləşmob keçirilib. Fləşmobda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə 100 könüllü gəncin iştirakı ilə Zərifə xanım Əliyevanın yüzillik yubileyini və oftalmoloq-alim kimi fəaliyyətini əks etdirən "100" və "Göz" kompozisiyası nümayiş etdirilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Qəlbinə don biçib ilk bahar kimi, Zərif olmalıydı gözdə nur kimi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev: ***"Ömür yoldaşım kimi, həyatımda keçdiyim yolda mənə həmişə dayaq, arxa olduğuna görə, ailə həyatımı çox xoşbəxt etdiyinə görə Zərifə xanım mənim üçün əzizdir..."***

*1967-68-ci illərdə Tibb İnstitutunda bizə göz xəstəliklərindən dərs deyən Zərifə müəlliməm haqqında söhbət düşəndə "O, qarayanız, qara-şəvə saçlı, sadə, təvazökar, alicənab bir qadın idi, hamımız onun xətrini mehriban ana kimi istəyirdik", – deyə cavab verirəm. Tələbələrə qarşı istiqanlı, mehriban, eyni zamanda tələbkar olan həkim-müəllim bizlərə nə ailəsindən söhbət salmağı, nə də özünün elmi-təcrübi nailiyyətləri ilə qürrələnməyi xoşlayardı. Ancaq arabir kafedranın yaşlı əməkdaşlarının "O boyda məşhur ailənin üzvü, dövlət xadiminin həyat yoldaşı olsa da, gör özünü necə sadə aparır" sözlərini eşidəndə təəccüblənərdik.*

## Ziyalı ailənin zərif qızı



Sonralar onun haqqında yazılan məqalələrlə, kitablarla tanış olduqca anladıq ki, bizim sadə müəllimimiz necə bir ailənin yetirməsi imiş. Yaşa dolduqca başa düşürdük ki, ölkəmizdə elə ailələr, sönməyən ulduzlar var ki, onların ziyası əbədi olaraq mənsub olduğu xalqın yolunu işıqlandırır. Bunlardan biri də Əziz Əliyev ailəsidir. Bu ailədən danışmaq məsuliyyətli olmaqla bərabər, həm də şərəflidir.

8 üzvündən 5-nin təbiblik peşəsinə sahib olduğu bu ailə ilə qısa tanışlıq dediklərimizi təsdiq edər. Ailənin başçısı məşhur dövlət və ictimai xadim, Azərbaycan tibb elminin korifeyi, respublikada səhiyyə qurucularından biri olan Əziz Məmmədkərim oğlu Əliyev, anaları Leyla xanım isə sadə, qayğıkeş, evdar qadın idi. Əziz Əliyevin hərtərəfli məhsuldar fəaliyyətini nəzərdə tutan dünya şöhrətli cərrah-akademik M.A.Topçubaşov onu "cəmiyyətin təbibi" adlandırırdı.

Qeyd etmək lazımdır ki, Petroqrad Hərb Tibb Akademiyasını bitirmiş Əziz Əliyev müxtəlif vaxtlarda Azərbaycan Xalq Komissarlar Sovetində bir sıra vəzifələrdə, Bakı Dövlət Universiteti Tibb fakültəsinin kafedra müdiri, Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Şəhəri Xalq Səhiyyə komissarı, Azərbaycan Nazirlər Soveti sədrinin birinci müavini, Bakı Dövlət Universitetinin, Azərbaycan Tibb İnstitutunun Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, Dağıstan Muxtar Vilayət Partiya Komitəsinin katibi və digər məsul vəzifələrdə çalışmışdır. Tanınmış səhiyyə və elm xadiminin övladları – ailənin böyük qızı, tibb elmləri namizədi, Əməkdar həkim Lətifə xanım (1914-1983), sadə, təvazökar insan kimi tanıdığımız müəllimimiz, tibb elmləri doktoru, professor, Azərbaycan Dövlət Tibb İnstitutunun kafedra müdiri, respublikanın Baş terapefti, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı Tamerlan Əliyev (1921-1997), ailənin sonbeşiyi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyası və Rusiya Tibb Elmlər Akademiyasının həqiqi üzvü, Respublika Onkologiya Mərkəzinin direktoru Cəmil Əliyev (1946) atalarının layiqli davamçıları olmaqla onun hərtərəfli zəhmətkeşliyini, yorulmazlığını ləyaqətlə yaşatmış və davam etdirmişlər. Göründüyü kimi, Əliyevlər ailəsinin həyat və yaradıcılığı təkcə Azərbaycan üçün deyil, ovaxtkı Sovetlər İttifaqının bütün xalqları üçün şərəf salnaməsi, ailənin cəmiyyətə bəxş etdiyi övladlar həmin mədəni irsin, salnamənin ayrı-ayrı cildləri, Zərifə xanım Əliyeva ömrü isə bu çoxcildliyin ən əlvan, rəngarəng tərtibatlı dərsliyidir. Cəmiyyətə bu qədər ziyalı, şöhrətli insanlar bəxş etmiş ailənin həyatı heç də o qədər rəvan olmamış – İrəvan, Naxçıvan, Bakı, İran arasında burulğanlarda, köçkünlükdə, siyasi sıxıntılarda keçmişdir.

Qədim diyarımızın Şahtaxtı kəndində dünyaya göz açan Zərifə xanım 1947-ci ildə Azərbaycan Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsini bitirdikdən sonra Moskva Həkimləri Mərkəzi Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri üzrə ixtisaslaşma kursu keçmişdir. O, bir il Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda ordinator kimi çalışdıqdan sonra 4 il Moskva Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda aspirantura təhsili almış, 1953-cü ildə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi kimi çalışmışdır.

Keçən əsrin 50-60-cı illərində respublikada tüğyan edən traxoma xəstəliyi Zərifə həkimi rahat buraxmır. O, təcrübi fəaliyyətini davam etdirməklə yanaşı, bu aktual mövzuya həsr etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" adlı namizədlik dissertasiyası müdafiə edir.

Zərifə xanım 1967-ci ildə atasının adını daşıyan Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent seçilir. Burada da xəstələrin müalicəsi, məsləhətlər, mühazirələrlə bərabər qlaukoma, görmə üzvünün iltihabı, travmaları, peşə patologiyaları mövzuları onun diqqətini cəlb edir. Moskva H.Helmhols adına Ümumittifaq Göz Xəstəlikləri İnstitutundakı gərgin elmi fəaliyyəti doktorluq dissertasiyası müdafiəsi ilə nəticələnir.

1977-ci ildən Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasına professor seçilən Zərifə xanımın təşəbbüsü ilə 1977-ci ildə Bakıda Ümumittifaq Oftalmologiya Cəmiyyəti idarə heyətinin plenumu keçirilir, 2 il sonra isə Azərbaycan Elmlər Akademiyası Ə.Qarayev adına Fiziologiya İnstitutunda Görmə üzvünün fiziologiyası və peşə patologiyaları ilə məşğul olan laboratoriya təşkil edilir. Bu mövzulara aid 150-dən artıq elmi məqalə, 10 monoqrafiya, 1 ixtira, 12 səmərələşdirici təklif müəllifi olan Zərifə xanım Əliyeva dünya oftalmologiyası üzrə ən yüksək mükafat – SSRİ Tibb Elmləri Akademiyasının M.J.Averbax adına mükafatına layiq görülən ilk alim titulunu qazanır. O, elmi-ictimai xadim kimi məsul vəzifələri də icra etmiş, müxtəlif orden və medallarla təltif edilmiş, "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, akademikliyə qədər yüksəlmişdir. Onun müxtəlif illərdə dərc olunmuş dərslikləri, dərs vəsaitləri geniş həkim və tələbə heyətinin stolüstü kitabına çevrilmişdir. Zərifə xanım mahir tibb olmaqla elmi, təşkilati işlərlə bərabər, ədəbiyyat, incəsənət həvəskarı, filoloq, pedaqoq, psixoloq kimi də tanınmış, tibbi etika, psixologiya və deontologiyaya aid çoxlu əsərlər yazmışdır. Onun həkim etikasına aid "Yüksək əqidə" kitabı və məqalələri xüsusi qeyd edilməlidir.

Onun fikrincə, müalicə həkimi xəstənin ən doğma adamı olmalıdır. Onun bu xüsusiyyətlərinə işarə edən ***Rusiya Tibb Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi A.R.Nesterov*** xatirələrində yazırdı: *"Zərifə Əziz qızı deyərdi: "Həkimin xəstə ilə birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, onun orqanizminin xəstəliyə qarşı müqavimətini artırır, bəzən dava-dərmandan da güclü təsir göstərir".* ***Professor A.N.Dobromıslov*** isə onun haqqında belə yazır: *"Zərifə Əziz qızı tibb işçisinin ətrafdakıların tərbiyəsində mühüm rol oynadığını, cəmiyyətin əxlaq etalonu olduğunu qeyd edirdi".*

Həyat yoldaşı, görkəmli dövlət xadimi, SSRİ Nazirlər Soveti Sədrinin müavini Heydər Əliyevin siyasi-təşkilati fəaliyyəti ilə əlaqədar Moskvada keçirdiyi son illər Onun üçün o qədər də xoş olmamış, 80-ci illərin ortalarında ümidsiz xəstəliyə məruz qalan Zərifə xanım 15 aprel 1985-ci ildə – 62 yaşında həyatla vidalaşmalı olmuşdur. Ulu Öndər bu hadisədən dərindən sarsılmışdır. 90-cı illərdə Naxçıvanda yüksək vəzifədə olarkən dar çərçivəli bir yığıncaqda Zərifə xanımla gənclik münasibətləri üzündən müvafiq təşkilatlar tərəfindən necə sıxışdırılmasından, işdən çıxarılması haqqında hədələrə baxmayaraq, öz əqidəsindən dönməməsindən fəxrlə danışırdı. Zərifə xanımın xəstəliyi ilə əlaqədar keçirdiyi sarsıntıları, hətta Moskvada Onun məzarını ziyarət edərkən DTK işçiləri tərəfindən izləndiyini xatırlayarkən gözlərinin qeyri-ixtiyari yaşardığını kənardan sezməmək mümkün deyildi.

Məclisin ən cavanı olsam da, ağsaqqallardan üzr istəyərək özümdə cəsarət toplayıb soruşdum: *"Heydər müəllim (oturanlar hamısı ona belə müraciət edirdi), çox təəssüf ki, müəllimimizi xilas etmək mümkün olmadı".* O, diqqətlə üzümə baxıb: ***"Həkim olduğunu bilirdim, amma Zərifə xanımın tələbəsi olduğunu indi eşidirəm",*** – dedi və birazdan asta-asta əlavə etdi: ***"Eşitməmişənmi, yazılana pozu yoxdur. Heyif ki, xəstəlik elə xəstəlik idi. Əlimizdən gələn hər şeyi etdik. Amma... O mənim üçün əbədi sağdır. Çünki bütün insan problemlərinə canıyanarlıq, qayğı, həkim fədakarlığı yüksək vətəndaşlıq ruhu, qeyri-adi səmimiyyət, həssaslıq və xeyirxahlıq, diqqətli və fəal həyat mövqeyi olan sənətkar, alim, həkim heç vaxt unudulmur".***

Zərifə xanımın özünün də dediyi kimi, "ömrünü gözlərə, könüllərə işıq verməyə" həsr edən, özündən sonra dünya şöhrətli övladlar, yüzlərlə tələbə, davamçılar qoyan insan sağlığında ölməzlik şərəfi qazanır. Ziyalı, işıqlı, xoş niyyətli insanlar ruhən, mənən heç vaxt ölmür, sönməyən ulduzlar kimi həmişə, xüsusən qaranlıq aləmdə daha çox parlayır, özündən sonrakı nəsillərin yoluna işıq saçır. Bu cür insanlar öz əməlləri, yaratdıqları, dedikləri, yazdıqları ilə ailə və cəmiyyət üzvlərinin, həmkarlarının, tələbələrinin, bütün onu tanıyanların qəlbində, xatirələrində əbədi yaşayırlar.

**Adil MƏMMƏDOV**
***Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dosenti, Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi***

## Gözlərin nur bəxşişi

Sizə söhbət açım Naxçıvan torpağının dünyaya bəxş etdiyi bir ziyalı xanımdan. O xanımdan ki Kəngərli rayonunun Şahtaxtı kəndindən dünyaya nur saçmağa gəlib. Atası Əziz Əliyevin təlim-tərbiyəsini almaqla bərabər onun sənətinin davamçısı olmuşdu.

Xalqına, millətinə etdiyi xidmətlərlə, payladığı nurla, dünyaya işıqsaçan bir dahi olaraq əbədi qəlblərə köçən O xanımdan söhbət açım. Azərbaycanlı xanımına xas olan sadə geyimi, səliqəsi, danışığı ilə yaddaşlarımıza həkk olan, bir çox insana dünya işığını bəxş edən nurlu qadından danışım... Körpəliyindən vətənpərvərliyi, işgüzarlığı özünə amal seçmişdi. 1941-1942-ci illərdə Böyük Vətən müharibəsi dövründə xəstəxanalara gətirilən yaralılara kömək əlini əsirgəməyən kiçikyaşlı, böyükürəkli Zərifə Əliyevadan danışmaq istəyirəm. Aldığı tibbi təhsili ilə tibb elminə yenilik gətirən, qeyri-adi peşəkarlığı ilə şöhrətlənən, dünya oftalmologiya elminə töhfələrini verən, böyük qəlbli insan, nəcib qadın Zərifə xanım Əliyevadan söhbət açım... Öz əməli fəaliyyəti ilə minlərlə insanın gözünə nur verərək onlara bu dünyanı görmək kimi böyük xoşbəxtlik bəxş edən, insanların gözündə nura dönən qadından danışım...

### *Səmimi, saf sevginin vüsalı...*

Ümummilli Liderimiz Heydər Əliyevlə böyük, saf sevgi ilə ailə həyatı quran, hər zaman həyat yoldaşının arxa-dayağı olan, ailəsinə bağlı, dahi şəxsiyyətin xalqına etdiyi xidməti yoluna işıqsaçan Zərifə xanımdan söz açım... Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş Ulu Öndərimizin etibarlı silahdaşı olmasından danışım. O, belə bir dahi üçün təkcə sədaqətli ömür-gün yoldaşı olmamışdı, həm də mənəvi dayağa, əsl dosta çevrilmişdi. Həyatının sonunadək onu qorumuşdu.

### *Ən müqəddəs amala çatması...*

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Ömrünün ən şirin payı olan iki körpəsini sevgi ilə böyüdən, onları Vətənə, millətinə bağlı olmağı hər kəlməsində aşılayan Zərifə xanım verdiyi tərbiyəsi ilə Azərbaycan xalqına Müzəffər Sərkərdə bəxş edib.

Zərifə xanım Əliyeva haqqında "nurlu insan", – deyə də bəhs edirlər. Onun həyat səhifələri ilə tanış olduqdan sonra o qənaətə gəlirsən ki, Zərifə xanım harada olubsa, ora işıqlı, nurlu olub. Təbii ki, cənab İlham Əliyev də bu nurdan öz payını almışdır ki, 30 illik bir hüzn, kədəri öz nuru ilə aydınlığa çevirdi. Bir milyondan çox insanın yurd həsrətinə son qoyaraq Qarabağımızı öz doğma insanlarına qaytardı. Zərifə xanımın dünyaya gətirdiyi övladı Azərbaycanın işğal olunan torpaqlarının azad edilməsilə tarixin 200 illik zaman kəsiyinin axarını dəyişdi. Zaman göstərdi ki, məhz Ulu Öndər Heydər Əliyev və Zərifə xanım Əliyeva kimi dahi insanların, gözəl ata-ananın, ləyaqətli vətəndaşların, ictimai xadimlərin, vətənpərvər insanların ailəsində İlham Əliyev kimi övlad böyüyə bilərdi. Bu övlad ailənin bütün üstün cəhətlərindən zaman-zaman aldığı dəyərlərlə yumruğu boyda ürəyinə Azərbaycan böyüklükdə Vətən sevgisini elə sığdırdı ki, bu sevgi bir gün xalqın, millətin xilasına çevrildi. Torpaq nisgili ilə yaşayan, başını dik tuta bilməyən xalqının başını zirvələrə qaldırdı.

### *Lider ata-ananın Lider oğlu ilə xoşbəxt gələcəyə doğru...*

Azərbaycan xalqı bir yumruq altında birləşərək, bütün qəlbi ilə inandığı və böyük məhəbbətlə sevdiyi, Zərifə xanımın bizə bəxş etdiyi Lider oğlu ilə xoşbəxt gələcəyə doğru bir yolçuluğa çıxıb. Bu yolla biz tezliklə Qərbi Azərbaycandan keçərək Zəngəzura, oradan da doğma Naxçıvanımıza gələcəyik. Çünki bu yol Prezidentimizin diqqətindədir və görülən işlər, aparılan danışıqlar müsbət yöndədir.

### *Azərbaycan qadınına nümunə olan həyat fəlsəfəsi...*

Bəli, Zərifə xanımın bir qadın olaraq üzərinə çox məsuliyyət cəmləşmişdi. O, övladına qayğıkeş, mehriban ana, həyat yoldaşına sədaqətli, vəfalı xanım, Vətən keşiyində duran ziyalı olmağı bacarmışdır. Hər zaman elmli, ədalətli, səxavətli, səbirli, həya və ismət sahibi kimi keyfiyyətləri özündə daşımışdır. Bu dəyərlər içərisində güclü və fədakar olaraq Azərbaycan tarixinə iz salmışdır. Ömür yolu ilə zamanın seçilən xanımı olmaqla yanaşı, gələcək nəsillər üçün də örnək olacaq bir simaya çevrilən Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi Azərbaycan qadınına nümunəvi yoldur.

**Səriyyə SALAHOVA**
***"Arazın səsi" qəzetinin məsul katibi***
***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən "Azərbaycan qadını, anası, həkimi – akademik Zərifə xanım Əliyeva" mövzusunda keçirilən esse müsabiqəsində gənclər arasında I yerin qalibi***



# Bir əsrlik ziya ömrü

Xalqımızın xoşbəxtliyi oradadır ki, onun mentalitetində analıq dəyəri – qayğıkeşlik, bütün varlığı, ruhu ilə övladlarına sevgi və şəfqət hissləri ilə bağlanmaq, ömür-gün yoldaşına sədaqətlilik, namusluluq, etibarlılıq kimi səciyyələrlə müəyyənləşir. Azərbaycan qadınının səciyyəsi Tomris ananın şücaəti, mətanəti, döyüşkənlik və qəhrəmanlığında, Sara xatının zəka əzmi və siyasətində, diplomatiyasında, Burla xatının, Banuçiçəyin, Dəli Domrulun və Dirsə xanın xanımlarının sədaqətində, ərinə arxa-köməkliyində, əfsanə obrazlarımızın iffətində, namus və şərəfində, ləyaqətliliyində, Məhsətinin, Heyran xanımın, Qönçəbəyimin incə, zərif duyğularının ifadə, bədii söz qüdrətində, laylalarımızın müəllifləri olan analarımızın şirin kəlmələrində, övlada qayğıkeşliyindədir. Və bir də Zərifə xanım Əliyevanın elmi hünərində, şəfqət duyğuları ilə xalqına xidmətindədir.

Akademik Zərifə xanım Əliyeva… Şərəfli ana olmaqla bərabər cəmiyyəti ucalığa aparan, ailə və cəmiyyət birliyində qadın şəfqətini, qayğıkeşliyini nümunəvi olaraq təcəssüm etdirən insanlıq, qadınlıq və ləyaqət rəmzi olan bir insan. Azərbaycan qadınına ucalıq, şərəf, şan gətirən dünya şöhrətli alim, təbib kimi böyük nailiyyət qüdrəti nümayiş etdirən Zərifə xanım Əliyeva kimi qadınlarımız cəmiyyətimizin mental müvəffəqiyyətinin təcəssümüdür.

Qadınlıq zirvədirsə, analıq onun tacıdır, şərəfi, ləyaqəti, dəyəri, zibasıdır. Həm qadın kimi nümunə olmaq və cəmiyyətinə, el-obasına bütün ürəyi, şəfqət hissləri ilə xidmət etmək, həm də uşaqlarının başında olmaq, onlara verdiyin tərbiyə ilə xalqına xidmətlə ucalan insanlar yetişdirmək bir qadının taleyində ən böyük nemətdir, nailiyyətdir, bəlkə də, hər şeydir.

Akademik Zərifə xanım Əliyeva ləyaqətli, uca, şərəfli bir ANA adını daşıyır. Zərifə xanım minlərlə Azərbaycan anasını müvəffəqiyyətlə təmsil edən böyük ürəkli, zərif xarakterli, övladlarına sonsuz sevgi dolu bir ANADIR. Bu böyük insan bir tərəfdən milyonların xidmətində bir həkim, tibb işçisi kimi qeyrətlə dayanmış, digər tərəfdən, milyonlarca insana, qüdrətli bir ölkəyə rəhbərlik edən dövlət başçısına – ömür-gün yoldaşına sədaqət və məhəbbətlə həyat yoldaşlığı etmişdir. Onun uzun illər Azərbaycan Respublikasına uğurla rəhbərlik edən Ulu Öndərimiz Heydər Əliyevin həyat yoldaşı olması, mötəbər və sevilən ana adını ləyaqətlə daşıması böyük qadın ürəyinin genişliyini və əzəmətli insan xarakterini təcəssüm etdirir. Bu böyük ürəkli qadın haqqında liderlər əsrinin lideri, adı, qəlbi, mənəviyyatı xalqı boyda böyük, uca olan dahi şəxsiyyət, xalqımızın Ümummilli Lideri, vəfalı və sədaqətli həyat yoldaşı Heydər Əliyev məhz belə demişdir: ***“Gənc yaşlarımdan mənim həmişə həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda, hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib. …Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam”.***

Bu böyük ANA həm də bu gün Azərbaycan xalqının yolunda böyük ürəklə, bütün varlığı və qeyrətilə xidmət edən, xalq üçün, dövlət üçün çalışan, Azərbaycanı uğurdan-uğura aparan vəfalı, vətənpərvər övladlar tərbiyə etmişdir. Üzərinə düşən bu qədər çoxcəhətli işin öhdəsindən müvəffəqiyyətlə gələn, ömründə bir dəfə də gileylənməyən, həm elmi, həm tibbi vəzifəni, milyonlarla insanın ona dikilmiş qaranlıq gözlərinə işıq gətirmək missiyasını yorulmadan icra edən, görkəmli alim, oftalmoloq, həkim kimi zirvələrə qalxan Zərifə xanım Əliyeva həm də ürəyi sevgi dolu ANA kimi Azərbaycanımıza bu gün xalqımızın xidmətində ləyaqətlə dayanan və ona liderlik edən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev kimi bir övlad bəxş etmişdir.

Cəmiyyəti ucalığa aparan, ailə və cəmiyyət birliyində qadın şəfqətini, qayğıkeşliyini nümunəvi olaraq təcəssüm etdirən, qadınlıq və ləyaqət rəmzi olan bir insandır Zərifə xanım. Deyirlər, göz Tanrıdan xəbər verir. Zərifə xanım Əliyeva öz zəkasının nuru ilə məhz insanlara təkcə qəlblərinin gözü ilə deyil, həm də onlara verilmiş göz nuru hesabına ilahi gözəllikləri görməyi bəxş etdi. Minlərlə insanın nur qazanmış gözləri Zərifə xanım Əliyevanın şəfqətli əllərinə minnətdardır. Bu mənada, mübaliğəsiz olaraq, demək olar ki, O, minlərlə insanın nəzərində onlara işıq, nur, xoşbəxtlik, yenidən yaşamağa ümid və sevgi gətirən işıq ilahəsidir.

Akademik Zərifə xanım Əliyevanın adını milyonlarla insan çox yaxşı xatırlayır. Onun adı mehriban insan, nəcib qadın, qayğıkeş ana və bunların hamısını özündə ümumiləşdirən qəlbi geniş, insanlara nur bəxş edən ilahə kimi əbədiləşib. Onu tanıyanlar bu insanın nəcibliyi, qayğıkeşliyi qarşısında həmişə heyrət duyublar. İşlədiyi uzun illər ərzində Onu həm Azərbaycanda, həm də ölkəmizin sərhədlərindən kənarda Azərbaycan qadınının uca timsalı kimi tanıyıblar. Doğrudan da, Onun adı milyonlarla insanın qəlbində əzəmətli heykəl kimi ucalmış, işıq ilahəsi kimi qəlbləri fəth etmişdir.

Zərifə Əziz qızı Əliyeva gənc oftalmoloq kimi fəaliyyətə başladığı illərdə “böyük SSRİ”nin hamını zəhmətkeşliyə səsləyib əməyini istismar etdiyi zamanlarda traxoma insanların gözündə dünyanı qaranlığa bürüyür, bütün ölkədə tüğyan edirdi. Belə bir vaxtda Zərifə xanımın taleyini Tanrı özü müəyyənləşdirir: Onu işıq ilahəsi olaraq Azərbaycan xalqına bəxş edir. Əbəs demirlər ki, “dərdi də verən Allahdır, dərmanını da”. Bu gənc xanımın elmi-tədqiqat işi gözlərə zülmət çökdürən traxoma xəstəliyinin axırına çıxır. Onun elmi tədqiqatları qısa müddət ərzində öz müsbət nəticəsini göstərir və dönüb milyonlarla insanın qəlbindən gələn, gözlərində görünən nur selinə dönür. Çünki o zaman bir bəlaya çevrilmiş traxoma xəstəliyinə qarşı təsirli müalicə üsulu nəinki Azərbaycanda, heç SSRİ-də yox idi. Bu mənada, gənc azərbaycanlı xanım Zərifə Əliyevanın elmi kəşfi bütün SSRİ respublikaları üçün ümid işığı və bütövlükdə oftalmologiya elmi qarşısında əvəzsiz xidmət idi.

Zərifə xanım o həkimlərdən idi ki, xəstələrlə, ümumən, insanlarla ünsiyyətdə yüksək əxlaqi davranışa, incə danışığa və qayğıkeş münasibətə üstünlük verirdi. Bu baxımdan görkəmli alim təkcə güclü elmi bilik və tibbi məharətə malik həkim kadrların yetişməsi üçün yox, həm də elmi və ictimai əxlaqi, davranış və münasibətə malik olan kadrların yetişməsi və tərbiyəsi üçün səy göstərirdi. Onun çoxsaylı məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuş, “Yüksək etimad” əsəri isə məhz cəmiyyətdə həkimin şəxiyyət kimi formalaşması prosesinə əvəzedilməz töhfələr vermişdir. “Xalqın sağlamlığı xalqın nailiyyətidir”, “Həkimin gündəlik zəhməti onu əhatə edən insanlarla, birinci növbədə, xəstələrlə davranış qaydalarını və formasını bilməyi tələb edir”, “Həkimin fəaliyyətinin əsasını xəstənin həkimə inamı… təşkil edir”, “Həkim çox səbirli olmalıdır. O, xəstənin daxili aləminə girib, onu başa düşməsi üçün dinləməyi bacarmalıdır”, “Həkim xəstənin mənafeyini hər şeydən üstün tutmalıdır”, “Həkimin əsas borcu xəstəyə imkan dairəsində nə varsa hamısını edib, onu sağaltmaqdır” və başqa fikirləri səhiyyə sahəsində Hippokrat andının işığında həkimlik sənətini seçənlər üçün ən zəngin etik davranış nümunəsidir. Zərifə xanım səhiyyədə kadr hazırlığına və həkimlərin ixtisasının təkmilləşdirilməsinə gərgin əmək sərf etmişdir. Onun birbaşa rəhbərliyi altında peşəkar həkim-oftalmoloqlar nəsli yetişmişdir. Zərifə xanım tələbələrinə zəngin həyat təcrübəsini öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmışdır. Zərifə xanım heç zaman gərgin işdən usanmamış, ürəkdən və ilhamla çalışmışdır. Zərifə xanımın həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiliyi və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi qayğı, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazanmışdır.

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə professor Zərifə xanım Əliyeva 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş, bir sıra orden və medallara, “Azərbaycanın Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdür.

Qısa, lakin çox şərəfli və mənalı ömür yolu keçən Zərifə xanım Əliyevanın yüz yaşı tamam olur. O, bir əsrlik ziya ömrü ilə milyonlarla insanın qəlbində özünə əbədi yer tutmuş, həmişəyaşarlıq qazanmışdır.

Bəli, akademik Zərifə xanım Əliyeva artıq özünə əbədi ünvan, əzəmətli yer, möhtəşəm yurd salmış bir şəxsiyyətdir. Bu böyük insan Şahtaxtı kimi bir kənddə doğuldu, amma bütün Azərbaycana, milyonlarla insana nur, işıq bəxş etdi... Zərifə xanım öz adı, ləyaqəti və əməli ilə milyonların anası olaraq Azərbaycan qadınının adına şərəf gətirdi, analığa yeni məzmun verdi, qadınlıq vəzifəsinə yeni vəzifə qatdı, onun mənəvi, ictimai məzmununu XX əsrdə mentalitetin ölçülərinə – özünə qaytardı, anaların və analığın etalonuna çevrildi.

**Ramiz QASIMOV**
*AMEA Naxçıvan Bölməsinin dosenti*

# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib




Naxçıvan Muxtar Respublikası Prokurluğu və Naxçıvan Muxtar Respublikası Hərbi prokurorluğunun əməkdaşları Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev ili” elan edilməsi ilə əlaqədar aprelin 27-də Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Muzeyini ziyarət edib.

Muzeydə dahi liderin həyat və fəaliyyətini, zəngin dövlətçilik irsini özündə təcəssüm etdirən materiallarla yanaşı, Ümummilli Liderə məxsus şəxsi əşyalar və digər mühüm eksponatlarla tanışlıq böyük maraq doğurub.

* * *

*Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan “Ümummilli Lider Heydər Əliyev və ölkəmizdə müasir dövlət idarəçilik sisteminin yaradılması” mövzusunda tədbir və “Karyera günü” keçirilib.*



Ulu Öndərin 100 illik yubileyinə həsr olunan tədbiri giriş sözü ilə universitetin rektoru, dosent Elbrus İsayev açaraq bildirib ki, Ümummilli Liderin fəaliyyəti Azərbaycan xalqına xidmət amalının, Vətəni sevməyin ən böyük örnəyidir. Azərbaycançılıq ideologiyasının nəzəri əsaslarını yaradan Ulu Öndərin rəhbərliyi və müəyyən etdiyi siyasi xətt nəticəsində bu gün Azərbaycan Cənubi Qafqazda liderliyini elan edərək onu qoruyub saxlaya bilib.

Qeyd olunub ki, tələbələrin karyera seçimi universitetin gələcək strateji proqramlarının reallaşmasında, məzunların əmək bazarında uğurlu və güclü rəqabəti beynəlxalq səviyyədə reytinq qazanmasında xüsusi əhəmiyyət daşıyır.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin sədri İsmayıl Qəribli deyib ki, Azərbaycan Respublikasında müasir dövlət qulluğu sisteminin formalaşdırılması və inkişafı Ümummilli Liderimizin adı və əməli fəaliyyəti ilə sıx bağlıdır.

Bu dahi şəxsiyyətin dövlət qulluğu siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının imzası ilə mühüm Dövlət proqramları təsdiq olunub, Elektron Hökumət və ASAN xidmət modeli yaradılıb. Ölkə başçısı tərəfindən Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının günün tələblərinə uyğun fəaliyyət göstərməsi üçün hərtərəfli şərait yaradılıb, dövlət qulluqçuları qayğı ilə əhatə olunub, öz fəaliyyəti ilə fərqlənənlər təltif edilibilər.

Sonra Dövlət İmtahan Mərkəzinin baş məsləhətçisi Məmməd Babayev slayd vasitəsilə “Naxçıvan Muxtar Respublikasında vətəndaşların dövlət orqanlarına və digər müəssisələrə işə qəbulu qaydaları” haqqında tələbə-gənclərə ətraflı məlumat verib.



Babək Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə “Ulu Öndər Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü” mövzusunda tədbir keçirilib. Yığıncaqda çıxış edən icra başçısı Rasim Hüseynov vurğulayıb ki, Azərbaycanın milli müstəqillik konsepsiyası Ümummilli Lider Heydər Əliyev tərəfindən işlənib hazırlanıb. Ulu Öndər sovet totalitar rejiminin tüğyan etdiyi dövrlərdə böyük uzaqgörənliklə Azərbaycanın gələcək müstəqilliyi üçün mühüm hərbi, iqtisadi, sosial, ideoloji tədbirlər həyata keçirib. Dahi şəxsiyyət ölkəmizə birinci rəhbərliyi dövründə böyük uzaqgörənliklə Azərbaycanın gələcək müstəqilliyi üçün addımlar atmışdır.

Diqqətə çatdırılıb ki, dövlət müstəqilliyimizin birinci mərhələsində olduğu kimi, onun ikinci mərhələsinin əvvəllərində də müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Ulu Öndər Heydər Əliyev yenidən Azərbaycan siyasi mühitində böyük xilaskarlıq missiyasını həyata keçirib. 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb siyasi fəaliyyət göstərən xalqımızın böyük oğlu həqiqi dövlət müstəqilliyinin bünövrəsini bu torpaqda qoyub, Onun rəhbərlik etdiyi Naxçıvan Muxtar Respublikası xalqımızın suveren hüquqlarının və dövlət müstəqilliyinin bərpa edilməsi uğrunda gedən mübarizənin mərkəzinə çevrilib.

Bildirilib ki, Ulu Öndərin müstəqil dövlətçilik prinsipləri zaman keçdikcə daha da möhkəmlənir. Çünki bu iş, bu siyasi kurs müasir şəraitdə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi altında həyata keçirilən tədbirlər, daxili və xarici siyasət sahəsində əldə olunmuş nailiyyətlər dövlət müstəqilliyimizin daha da möhkəmlənməsinə və davamlı xarakter almasına xidmət edir.

Vurğulanıb ki, dövlət müstəqilliyimizin bəhrəsidir ki, ölkə Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə Naxçıvan Muxtar Respublikası da davamlı inkişaf yolundadır.

Mövzu ilə bağlı Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədov, Naxçıvan Müəllimlər İnstitutunun prorektoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Həbibə Allahverdiyeva çıxış ediblər.

Sonda Ulu Öndərə həsr edilmiş filmin nümayişi olub.

**Xəbərlər şöbəsi**

# Görkəmli oftalmoloq-alimin adını daşıyan məktəb uğurları ilə seçilir

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:** *Zərifə xanım Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı idi. Bütün işlərdə ona dayaq olurdu, onu dəstəkləyirdi. Ailəmizdə olan ab-hava, mühit, valideynlər arasında olan münasibətlər, əlbəttə ki, bizi də tərbiyə edirdi. Yəni ailədə tərbiyəni valideynlərin münasibətlərini görərək alırdıq. Əlbəttə, 1970-ci illərdə – Heydər Əliyev Azərbaycanda birinci katib vəzifəsində işlədiyi dövrdə Heydər Əliyevin həyat yoldaşının, əlbəttə ki, müxtəlif imtiyazları və üstünlükləri ola bilərdi. Ancaq Zərifə xanım çox sadə bir insan idi, heç vaxt büruzə vermirdi ki, Heydər Əliyevin – birinci katibin həyat yoldaşıdır. Həmişə onun yanında sadə insanlar olurdu. O, həmişə sadə insanların əhatəsində olurdu. Çox təvazökar idi.*



*Araz çayı sahilində, Arazboyu düzənlikdə yerləşir Kəngərli rayonunun Şahtaxtı kəndi. Qədim Kəngərli tayfasının yurdu olan bu kənd zəngin keçmiş tarixi, tariximizə bəxş etdiyi görkəmli şəxsiyyətləri ilə tanınır. İctimai xadim, jurnalist Məhəmməd ağa Şahtaxtinski, diplomat Behbud ağa Şahtaxtinski, tibb elmləri doktoru və professor adını alan ilk azərbaycanlı qadın Adilə Şahtaxtinskaya, Xalq rəssamı Elmira Şahtaxtinskaya, yazıçı, nasir Hüseyn İbrahimov, görkəmli şair və dramaturq Hüseyn Cavidin atası Molla Abdulla Rasizadə və Tibb elmləri doktoru, akademik Zərifə xanım Əliyeva kimi, ictimai xadim, alim, professor, jurnalist, mühəndis doğulub bu kənddə.*

Görkəmli dövlət və elm xadimi, tibb elmləri doktoru, professor Əziz Əliyevin ailəsində dünyaya göz açan dünya şöhrətli oftalmoloq-alim Zərifə xanım Əliyevanın xalqımız qarşısındakı xidmətləri bu gün də ehtiramla xatırlanır, unudulmur. Azərbaycan oftalmologiya elmini beynəlxalq aləmdə tanıdan, fitri istedadı, nadir bilik və qabiliyyəti ilə seçilən Zərifə xanım öz fəaliyyəti ilə elmin, həkimlik və pedaqoqluğun ən uca zirvəsinə yüksəlib. Eyni zamanda geniş qəlbi, böyük ürəyi ilə nəinki öz ətrafının, eləcə də bütün Azərbaycan xalqının qəlbində özünə əbədi yer tutub. Zərifə xanım Əliyevanın adı respublikamızda əbədiləşdirilib. Adına olan küçələr, xəstəxanalar, körpələr evi, təlim-tərbiyə ocaqları ona hörmətin, ehtiramın göstəricisidir. Muxtar respublikamızda Naxçıvan Şəhər Poliklinikası, doğulduğu Şahtaxtı kəndindəki tam orta məktəb, eləcə də Naxçıvanda bir küçə Zərifə xanım Əliyevanın adını daşıyır. Prezident cənab İlham Əliyevin "Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" 2022-ci il 3 noyabr tarixli Sərəncamı Zərifə xanımın zəngin və mənalı ömür yolunu yenidən öyrənmək, tədqiq etmək, araşdırmaq istəyənlərə Zərifə xanıma böyük sevgi və ehtiramın ifadəsidir. Naxçıvan Muxtar Respublikasında Zərifə xanım Əliyevanın 100 illik yubileyi ilə bağlı Tədbirlər Planı hazırlanıb və çoxsaylı tədbirlər keçirilib.

Ümummilli Lider Heydər Əliyev demişdir: ***"Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycan elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq".*** Ölkəmizdə kifayət qədər elmli, savadlı, istedadlı insanlar yetişdirən təhsil müəssisəsi var ki, bu gün də onlar öz uğurları ilə seçilir. Belə təhsil müəssisəsindən biri, görkəmli şəxsiyyətlər yetirən akademik Zərifə xanım Əliyevanın adını daşıyan Şahtaxtı kənd tam orta məktəbidir.

Kəngərli rayonunun Şahtaxtı kəndinə getdik, qədim tarixə malik bu məktəbə yollandıq. 4 mərtəbəli məktəb binası uzaqdan bir universitet binasını xatırladır. Bu böyük elm, təhsil ocağına daxil oluruq. Foyedə akademik Zərifə xanım Əliyevanın büstü, birinci mərtəbədə görkəmli oftalmoloq-alimin xatirə muzeyi yerləşir. Muzey görkəmli akademikin həyat və fəaliyyətini əks etdirən materiallarla zəngindir. Muzeydə Zərifə xanımın portreti diqqətimizi çəkir. Bu portret özündə zərif, incə, yumşaq qadın qəlbinin bütün gözəlliklərini, eyni zamanda elm, səhiyyə sahəsinə mühüm töhfələr vermiş böyük istedada, mənəviyyata malik bir qadının təvazökarlığını, sadəliyini özündə əks etdirir. Burada Zərifə xanım Əliyevanın Ümummilli Lider Heydər Əliyev, Prezident cənab İlham Əliyev, Sevil xanım Əliyeva və nəvələri ilə birgə fotoları, həmçinin tanınmış insanların görkəmli oftalmoloq-alim haqqında söylədiyi fikirlər, Zərifə xanım Əliyevanın elmi fəaliyyəti ilə bağlı kitab və ensiklopediyalar, onun adına olan poçt markaları böyük maraq doğurur.

Məktəbin direktoru ***Ehtimad Məmmədov***la məktəbin fəaliyyəti, qazandığı uğurlar barədə həmsöhbət olduq. Onun dedikləri: – Şahtaxtı kəndi böyük elm xadimlərinin, alimlərin ata ocağıdır. Dünya şöhrətli alim, professor Zərifə xanım Əliyevanın bu kənddə doğulması bütün şahtaxtılılar üçün qürur mənbəyidir. Bu gün onun adını daşıyan Şahtaxtı kənd tam orta məktəbi öz fəaliyyətini bu ada layiq qurmağa çalışır. 2005-ci ildə istifadəyə verilmiş məktəbimizdə şagirdlərin yüksək səviyyədə təhsil alması üçün hər cür şərait yaradılmış, 2007-ci ilin oktyabr ayında Prezident cənab İlham Əliyev məktəbdə olmuş və məktəbin fəaliyyətinə uğurlar arzulamışdır. İntellektli və vətənpərvər gənclər yetişdirən bu məktəbin binası 2016-cı ildə əsaslı yenidənqurmadan sonra istifadəyə verilib. 594 şagird yerlik məktəb binasında 5-i elektron lövhəli olmaqla, 33 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 2 kompüter otağı, 2 şahmat otağı, müəllimlər otağı, tibb otağı, kitabxana, idman zalı və bufet vardır. Məktəbdə 38 kompüter, kitabxanada 8 mindən artıq kitab müəllim və şagirdlərin istifadəsinə verilib. Kimya və biologiya laboratoriyaları tədris proqramına uyğun təcrübə avadanlıqları, elektron lövhə ilə təmin edilib. Şahtaxtı kənd tam orta məktəbinin 2 müəllimi "Tərəqqi" medalı ilə təltif edilib, 1 müəllim "Azərbaycan Respublikasının Əməkdar müəllimi", 1 müəllim isə "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adlarına layiq görülüb.



"Məktəbin şagirdləri ölkəmizin ali, orta ixtisas və peşə məktəblərinə qəbul olunur, qazandıqları nailiyyətlərlə məktəbimizin adını ucaldırlar", – deyən məktəb direktoru bunları söylədi: – 2020-2021-ci tədris ilində məktəbimizdən ali və orta ixtisas təhsili müəssisələrinə qəbul 87 faiz təşkil edib, 2021-2022-ci tədris ilində məktəbi bitirən 11 məzun ali məktəblərə qəbul olunub. Məktəbimizdə gənc nəslin hərbi vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi daim diqqətdə saxlanılır. Dediyimiz illər arasında IX sinfi bitirən 8 şagird Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub. Qəbul göstəricisinə görə məktəbimiz dəfələrlə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən diplomla təltif edilib. Hazırda məktəbimizdə 40 müəllim 347 şagirdin təlim-tərbiyəsi ilə məşğuldur. Bu il akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyi ilə bağlı məktəbimizdə rəsm və şeir müsabiqələri, bilik və idman yarışları keçirilib. Bu tədbirlər davam etdirilməkdədir.






Ehtimad müəllim məktəbin xarici əlaqələrinə toxunaraq dedi: – Məktəbimizin Ukraynanın İrpen şəhərindəki Akademik Zərifə Əliyeva adına 12 nömrəli tam orta məktəb ilə dostluq əlaqələri vardır. 2018-ci ilin aprel ayında İrpen şəhərində fəaliyyət göstərən Akademik Zərifə Əliyeva adına 12 nömrəli xarici dillər üzrə ixtisaslaşmış ümumtəhsil məktəbinin direktoru Valentina Antonenkonun rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında səfərdə olub, görkəmli akademikin anadan olmasının 95-ci ildönümü münasibətilə keçirilən tədbirlərdə iştirak edib. Naxçıvan Muxtar Respublikası təhsil işçiləri də həmin məktəbin dəvəti əsasında oraya səfər ediblər. Qarşılıqlı səfərlər əlaqələrin möhkəmlənməsində mühüm rol oynayır. Həmçinin ötən il məktəbin direktoru Valentina Antonenko Prezident cənab İlham Əliyevə ünvanlandığı məktubda məktəbimizlə dostluq əlaqələrinə toxunmuş, Zərifə xanım Əliyevanın xatirəsinə öz ehtiramını bildirmişdir.

Məktəbin müəllimi ***Arifə Hüseynova*** ilə söhbətimiz zamanı dedi: – Azərbaycanın görkəmli alimi, tibb elmləri doktoru, akademik Zərifə xanım Əliyeva oftalmologiyanın inkişafına verdiyi böyük töhfələrlə yaddaşımızda qalıb. Görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə oftalmologiya aləmində ən yüksək mükafata, həmçinin fəaliyyəti boyu bir sıra orden və medallara layiq görülüb, "Azərbaycanın Əməkdar elm xadimi" fəxri adını alıb. Biz Onunla həm böyük alim, insan kimi, həm də müstəqil Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin həyat yoldaşı, bizə böyük Zəfəri qazandıran Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin anası kimi fəxr edirik.

"Bu gün məktəb binasında yaradılan şərait hesabına ixtisaslı müəllimlərimiz qarşıya qoyulmuş vəzifələri uğurla yerinə yetirir", – deyən Arifə müəllim onu da vurğuladı ki, Zərifə xanım Əliyevanın ömür yolu hər bir şagird və müəllimimiz üçün əsl nümunədir. Məktəbin əksər şagirdləri Zərifə xanım Əliyeva kimi həkim olmaq, xalqına, dövlətinə layiqincə xidmət etmək istəyirlər.

Məktəbdə STEAM dərsini tədris edən riyaziyyat müəllimi ***Gülçin Əhmədova*** ilə STEAM kabinəsində həmsöhbət olduq : – 2021-ci ildən məktəbimizdə STEAM kabinəsi yaradılıb. Kabinə lazımi avadanlıqlarla təchiz edilib. Peşəkar səriştələrə malik mütəxəssis hazırlığında mühüm rol oynayan STEAM metodu beş sahənin – elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın birgə və inteqrasiya olunmuş şəkildə tədrisi ideyası üzərində qurulmaqla yaradıcı öyrənməni təmin edir. Hazırda VI-VII sinif şagirdlərimiz praktiki məşğələlər vasitəsilə elmi-texniki biliklərin gündəlik həyatda tətbiqini öyrənir, müxtəlif proqramlardan istifadə etməklə öz bacarıqlarını nümayiş etdirirlər. Şagirdlərimiz STEAM-lə bağlı bütün tədbirlərdə, eləcə də "STEAM təhsil festivalı"nda uğurla iştirak ediblər. Festivalda onların arduino proqramından istifadə etməklə hazırladığı "Naxçıvanqala" proyekti maraqla qarşılandı və diplomla təltif edildi.

Gülçin müəllim 44 günlük şanlı Vətən müharibəsinə də toxundu: – Kəndimizin 6 şəhidi var ki, onların üçü birinci, digər üçü isə ikinci Qarabağ müharibəsinin iştirakçılarıdır. Qeyd edim ki, böyük Zəfərlə başa çatan Vətən müharibəsində Naxçıvanın digər oğulları kimi, Şahtaxtı kəndinin də mərd, qeyrətli övladları torpaqlarımızın azadlığı uğrunda öz can-ları-qanları bahasına döyüşərək şəhid olublar. Şagirdlərimiz 3 D printerdə Vətən müharibəsinin şəhidləri Elməddin Həsənov, Azər Tağıyev və Zaman Məmmədovun portretinin çərçivəsini hazırlayıblar. Şəhidlərimizin xatirəsi məktəbimizdə həmişə anılır, onların qəhrəmanlıq, mübarizlik, vətənpərvərlik yolu daim təbliğ edilir.

Məktəbin uğur qazanan bir neçə şagirdi ilə həmsöhbət olduq. XI sinif şagirdi, kimya, fizika fənləri üzrə keçirilən muxtar respublika olimpiadalarının, bilik yarışlarının iştirakçısı ***Səriyyə Qənbərli*** dedi: – IV ixtisas qrupu üzrə ali məktəbə hazırlaşıram. Zərifə xanım Əliyevanın adını daşıyan bu məktəbdə təhsil aldığım üçün qürur duyuram. Mən də onun kimi göz həkimi olmaq, xalqıma, dövlətimə layiqincə xidmət etmək istəyirəm.

***Ucal Musayev*** məktəbin IX sinfində oxuyur. Bu yaxınlarda Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş beynəlxalq turnirdə iştirak edərək uğur qazanıb. Ucalın təəssüratlarını öyrəndik : –Bu ilin mart-aprel aylarında Bakı şəhərində keçirilən, 11 ölkənin 100-dən artıq idmançısının qüvvəsini sınadığı beynəlxalq turnirdə boks üzrə III yeri tutaraq bürünc medala layiq görüldüm. Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş bu turnir uğur qazandığım idman yarışları içərisində ən dəyərlisi idi. Demək olar ki, muxtar respublikada keçirilən boks idman növü üzrə bütün yarışlarda iştirak edib, dəfələrlə çempion adını qazanmışam. Boksa marağım 4 yaşımdan yaranıb. Atam Aftandil Musayev rayonda tanınan boks müəllimidir. O mənə bu idmanla məşğul olmaq üçün həm bir müəllim, həm də bir ata kimi həmişə dayaq olub. Bundan sonra da özümü inkişaf etdirmək, uğur qazanmaq üçün var gücümlə çalışacağam. Əldə etdiyimiz nailiyyətlərlə Zərifə xanım Əliyevanın adını daşıyan bu məktəbin adını həmişə uca tutacağıq.

*Kollektivlə sağollaşıb məktəbdən ayrılıram. Düşünürəm ki, həyatı boyu yorulmadan çalışan, elmə, təhsilə, səhiyyəyə mühüm töhfələr vermiş böyük alim haqqında nə qədər yazsan, yenə də azdır. Zərifə xanım həyata, dünyaya "öz odundan" nur verməyə gəlmişdi. Neçə-neçə insanın gözlərinə nur bəxş etmiş, mənalı ömrü, şərəfli həyat yolu, qazandığı nailiyyətləri hər birimiz üçün nümunə olan, gənc alimlər, həkim-oftalmoloqlar nəslini yetişdirən Zərifə xanım Əliyevanın əziz xatirəsi qəlbimizdə əbədi yaşayır.*

**Güntac ŞAHMƏMMƏDLİ**

## Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi ilə bağlı tədbirlər keçirilib

*Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəliyində görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyi ilə əlaqədar tədbir keçirilib.*



Əvvəlcə daimi nümayəndəliyin rəhbəri Fəxri xiyabana gələrək kollektiv adından müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın Əməkdar elm xadimi, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın əziz xatirəsini ehtiramla yad edib, məzarları önünə əklillər qoyub.

Daimi nümayəndəliyinin kollektivin iştirakı ilə keçirilən tədbirdə Ümummilli Liderimiz Heydər Əliyevin, akademik Zərifə xanım Əliyevanın və Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olmuş Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra akademik Zərifə Əliyevanın həyat yoluna və elmi yaradıcılığına həsr edilmiş "Əsl alim, qayğıkeş ana, sevimli həyat yoldaşı" sənədli filmi nümayiş olunub.

Tədbirdə çıxış edən daimi nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov vurğulayıb ki, 2023-cü il Azərbaycan xalqının böyük oğlu, müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Ümummilli Liderimiz Heydər Əliyevin və onun ömür-gün yoldaşı, Azərbaycan elminin parlaq simalarından biri, tanınmış oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın 100 illik yubileylərinin geniş və təntənəli şəkildə qeyd olunması ilə əlamətdardır. O, Prezident cənab İlham Əliyevin ötən il noyabrın 3-də "Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamı barədə məlumat verib.

Bəxtiyar Əsgərov unudulmaz elm xadimi, görkəmli oftalmoloq-alim, ictimai xadim, akademik Zərifə xanım Əliyevanın keçdiyi mənalı və şərəfli həyat yolundan, zəngin elmi irsindən, peşə və ictimai fəaliyyətindən bəhs edib.

Diqqətə çatdırılıb ki, görkəmli dövlət və elm xadimi Əziz Əliyevin övladı və böyük şəxsiyyət Heydər Əliyevin xanımı olmaq məsuliyyətini həmişə şərəflə daşıyan akademik Zərifə Əliyeva çoxsaylı elmi əsərlərin, monoqrafiya, səmərələşdirici təklif və dərs vəsaitlərinin müəllifi olub. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərib.

Tədbir digər çıxışlarla davam edib.

**AZƏRTAC**

AMEA Naxçıvan Bölməsində Rəyasət Heyətinin iclası olub. Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev iclası açaraq, ilk növbədə, iştirakçıları gündəlikdəki məsələlərlə tanış edib.

İsmayıl Hacıyev bildirib ki, aprel ayının 28-də görkəmli alim, tanınmış oftalmoloq, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü Zərifə Əliyevanın anadan olmasının 100 ili tamam olur. Azərbaycan Respublikası Prezidentinin Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi ilə bağlı imzaladığı Sərəncamın əhəmiyyətini diqqətə çatdıran bölmə sədri yüksək insani keyfiyyətlərə malik alimin tibb elminin inkişafına bəxş etdiyi töhfələrdən danışıb.

Daha sonra İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Dilçilik şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Nuray Əliyeva "Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın həyatı və fəaliyyəti" adlı məruzəsini təqdim edib. Məruzəçi akademikin mənalı ömür yolu, tibb sahəsindəki uğurlu fəaliyyəti və elmi yaradıcılığı barədə müfəssəl məlumat verib.

Vurğulanıb ki, Zərifə xanım sadəliyi, nəcibliyi və səmimiyyəti ilə hər kəsin sevgisini qazanmış, həyatını, sözün əsl mənasında, xalqın işıqlı sabahına həsr etmiş, həyatı boyu amalına sadiq qalmışdır. Bidirilib ki, Zərifə xanım Əliyeva öz sahəsi üzrə neçə-neçə həkim və alimin yetişməsinə, oftalmologiya elminin yeni kadr və biliklərlə zənginləşməsinə



töhfələr vermişdir.

Zərifə xanımın Ulu Öndər Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı olduğunu xatırladan Nuray Əliyeva bildirib ki, o bu məsuliyyətli vəzifəni qürur və bacarıqla daşımış, nümunəvi qadın, qayğıkeş ana kimi qəlbləri fəth etmişdir.

Məruzədən sonra iclasın gündəliyinə çıxarılan digər məsələlər müzakirə olunub, müvafiq qərarlar qəbul edilib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

***

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi ilə əlaqədar Kəngərli Rayon Mədəniyyət Sarayında tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları Şahtaxtı kəndində görkəmli akademikin adını daşıyan məktəbin foyesindəki büstü önünə gül dəstələri qoyub, alimin həyat və fəaliyyətini əks etdirən muzeylə yaxından tanış olublar.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə, oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Zərifə xanım Əliyevanın şərəfli həyat yolundan, elmi nailiyyətlərindən, ictimai xadim kimi əvəzsiz fəaliyyətlərindən bəhs edən film nümayiş olunub.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov bildirib ki, Azərbaycan



Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyi ölkəmizdə geniş qeyd edilir. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən də Zərifə xanım Əliyevanın 100 illik yubileyi ilə bağlı silsilə tədbirlər həyata keçirilir.

Diqqətə çatdırılıb ki, Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələrini təşkil edir. 1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə və oftalmologiyanın inkişafına verdiyi töhfələrə görə akademik Zərifə xanım Əliyevaya keçmiş ittifaqın oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatı verilib. Vurğulanıb ki, Zərifə xanım həmin mükafata layiq görülən ilk qadın alim idi.

Zərifə xanım Əliyevanın elmi-ictimai fəaliyyətindən geniş bəhs edən nazir qeyd edib ki, Onun zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. O, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf edib, xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının axtarılması yollarında dəyərli elmi tədqiqatlar aparıb.

Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının sədri Sevda Quliyeva çıxışında dünya şöhrətli alimin Azərbaycan tibb elminin inkişafındakı fəaliyyətindən və oftalmologiya sahəsində qazandığı nailiyyətlərdən danışıb. Bildirib ki, tibbin mühüm sahəsi olan oftalmologiya elmi sahəsində uzun illər dəyərli tədqiqatlar aparan, intellektual səviyyəsi, özünəməxsus tədqiqatçılıq məharəti, qələminin qüdrəti ilə elmin ən uca zirvələrini fəth edən Zərifə xanım Əliyeva görkəmli alim, müəllim, ictimai proseslərdə fəal Azərbaycan qadını kimi milli elm tarixinə öz sanballı möhürünü vurub.

Sonra Kəngərli Rayon Təhsil Şöbəsinin müdiri Emin Məmmədxanlının, Şahtaxtı kənd tam orta məktəbinin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Etimad Məmmədovun çıxışları dinlənilib.

Tədbirin bədii hissəsində Kəngərli rayonunun ümumtəhsil məktəblərinin şagirdləri Zərifə xanım Əliyevaya həsr olunan şeirlər bədii qiraət edib, mahnı və musiqi nömrələri ilə çıxış ediblər.

***Naxçıvan Muxtar Respublikası<br>Təhsil Nazirliyinin mətbuat xidməti***

## Prezidentin Sərəncamına əsasən Naxçıvanda 265 nəfərə birdəfəlik maddi yardım veriləcək

Prezident cənab İlham Əliyev aprelin 26-da "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncam imzalayıb.

Sərəncama əsasən İkinci Dünya müharibəsində Qələbənin 78-ci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası üzrə həmin müharibənin iştirakçısı olmuş 4 nəfərin hər birinə 1500 manat veriləcək. Bununla yanaşı, sözügedən Sərəncamda nəzərdə tutulan digər şəxslərdən ibarət 261 nəfərin hər birinə isə 750 manat birdəfəlik maddi yardım veriləcək.

Bu məlumatlar Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi sosial şəbəkə hesablarında yerləşdirilib.

Qeyd edək ki, Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən birdəfəlik maddi yardımlar İkinci Dünya müharibəsi iştirakçıları və sənəddə nəzərdə tutulan digər şəxslərdən ibarət, ümumilikdə, 3729 şəxsə şamil olunacaq.

***Xəbərlər şöbəsi***

*28 aprel Ümumdünya Əməyin Mühafizəsi Günüdür*

## Əməyin mühafizəsi sahəsində həyata keçirilən tədbirlər insan amilinə yüksək qayğıdır

Beynəlxalq Əmək Təşkilatı tərəfindən 2003-cü ildən etibarən 28 aprel Ümumdünya Əməyin Mühafizəsi Günü elan edilib. Bu günün təsis olunmasında əsas məqsəd sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasına, əməyin mühafizəsinə ictimai diqqətin artırılmasıdır.

Ölkəmizdə əməyin mühafizəsi, işçilərin hüquqlarının qorunması, təhlükəsiz və sağlam iş şəraitinin yaradılması sosial siyasətin əsas istiqamətlərindən hesab olunur. Bu sahədə milli qanunvericilik bazasının formalaşdırılması xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, ulu öndərin ölkəmizə rəhbərliyi dövründə əmək münasibətləri və əməyin mühafizəsi sahəsində beynəlxalq prinsiplərə uyğun normativ-hüquqi aktlar qəbul olunmuş, Beynəlxalq Əmək Təşkilatının bir sıra konvensiyaları ratifikasiya edilmiş, zəngin qanunvericilik bazası yaradılmışdır. ***"Azərbaycan dövlətinin ən qiymətli sərvəti onun insanlarıdır"***, – deyən Ulu Öndərin müəllifi olduğu Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsində hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək hüququ təsbit olunmuşdur. Həmçinin ölkənin bu əsas Qanununda işçilərin əmək və istirahət hüquqlarının əsasları da öz əksini tapmışdır. Bununla yanaşı, ölkəmizdə əmək münasibətlərini tənzimləyən əsas qanunvericilik aktı 1999-cu ildə qəbul edilən Azərbaycan Respublikasının Əmək Məcəlləsidir. Məcəllədə əmək münasibətlərində olan işçilərin və işəgötürənlərin hüquq və vəzifələri, qarşılıqlı məsuliyyətləri, habelə əməyin mühafizəsini tənzimləyən norma, qayda və prinsiplər öz əksini tapmışdır.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizdə əmək hüquqlarının təmin olunmasını diqqətdə saxlanılır, əməyin mühafizəsi sahəsində qanunvericilik təkmilləşdirilir, əmək şəraiti yaxşılaşdırılır.

Muxtar respublikada da əməyin mühafizəsi tədbirləri diqqət mərkəzindədir. Həyata keçirilən genişmiqyaslı tikinti-abadlıq işləri, yeni istehsal və emal müəssisələrinin, xidmət sahələrinin fəaliyyətə başlaması, iqtisadiyyatın müxtəlif sahələrində çalışan işçilərin əmək hüquqlarının qorunması üzrə tədbirlərin həyata keçirilməsini şərtləndirir. Bu səbəbdən muxtar respublikada əmək şəraitinin yaxşılaşdırılması ilə yanaşı, istehsalat mədəniyyətinin yüksəldilməsi istiqamətində də ardıcıl maarifləndirici tədbirlər icra edilir. İcra edilən işlər nəticəsində əməyin mühafizəsi qaydalarının pozulması, həmçinin istehsalatda baş vermiş bədbəxt hadisələrin sayında ötən illərlə müqayisədə azalmalar müşahidə olunur.

Əməyin mühafizəsi sahəsində həyata keçirilən tədbirlər insan amilinə yüksək diqqət və qayğını özündə ehtiva edir. Əməyin mühafizəsinin təşkili muxtar respublikamızda bundan sonra da xüsusi diqqət yetirilən vacib məsələlərdən biri olacaqdır.

***Naxçıvan Muxtar Respublikası<br>Əmək və Əhalinin Sosial Müdafiəsi<br>Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Şərur şəhəri, Mikayıl Müşfiq küçəsi, 18/11 ünvanında yerləşən Məmmədov Ağababa Məmməd oğluna məxsus mənzilin 842 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Cəhri kəndində yaşamış Hüseynova Nisə Vəli qızının adına olan JN-2435$^{C}$ inventar nömrəli, 10305018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Cəfərli Aytac Musa qızının adına verilmiş Azərbaycan Respublikasının ümumvətəndaş pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 301